## Səssiz əməliyyat

Hakim yüksəkliklər nəzarətə götürüldü



**Azərbaycan Ordusunun Laçın rayonu, Kiçik Qaladərəsi kəndi istiqamətində olduqca əhəmiyyətli 1516 metr və 1686 metr yüksəklikləri nəzarətə götürməsi barədə məlumatlar yayılıb.**

Ekspertlərə görə, sözügedən iki yüksəkliyin Ordumuzun nəzarətinə keçməsi Qubadlı-Laçın yolunun təhlükəsizliyinin təmin olunması baxımından önəmlidir.

Həmçinin digər mühüm mövqelərə nəzarət imkanının yaranması deməkdir. Məlumat üçün bildirək ki, bir ay öncə Ordumuz Ermənistanla sərhəddə yerləşən Laçının Cağazur və Zabux kəndləri arasında yerləşən bir neçə hakim yüksəkliyi, əsas və yardımçı yolları, eləcə də sərhədboyu geniş sahələri nəzarətə götürmüşdü.

(səh.3)



## "Azərbaycan var olsun" şüarı Təbrizi silkələdi

**Dünən Təbrizdə müğənni Rəhim Şəhriyarinin konsertindən sonra təbrizlilər şəhərin dəmiryol vağzalına yığışıblar.**

Bu barədə məlumat Teleqram kanallarında yayılıb.

İştirakçılar "Yaşasın Azərbaycan", "Azərbaycan var olsun, istəməyən kor olsun" kimi şüarlar səsləndiriblər.



## Bakıda taksilərin qiyməti 30 faiz bahalaşıb

Ekspertlər hesab edir ki, gedişhaqqının artması müvəqqəti xarakter daşıyır

**Bakıda fəaliyyət göstərən taksi xidmətlərində gedişhaqqı artıb. Qiymətin bahalaşmasını taksi sürücüləri və sərnişinlər də "Trend"ə təsdiqləyib. Onların sözlərinə görə, gedişhaqqı 30 faizə qədər bahalaşıb.**

"Sürücülər bildiriblər ki, hazırkı bahalaşma "Formula-1" ilə bağlıdır. Belə ki, yarışla əlaqədar Bakıya çoxlu sayda turist gəlib. Bu səbəbdən də taksi xidmətlərindən istifadə artıb. İkinci səbəb kimi isə yarışların keçirildiyi mərkəzi yolların bağlı olması və benzin sərfiyyatının artmasıdır. Bu hal müvəqqətidir. Yarışlar bitdikdən sonra qiymətlər əvvəlki vəziyyətinə qayıdacaq", - deyə qeyd edilib.


❒ № 73 (5834) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 29 aprel 2023-cü il (şənbə)




## Prezident İlham Əliyev akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Fəxri xiyabanda görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib.**

Dövlət başçısı Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstəsi qoyub, əziz xatirəsini ehtiramla anıb.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

Prezident İlham Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib, önünə gül dəstəsi qoyub.

## Azərbaycan XİN Fransa xarici işlər nazirinə cavab verib

"Fransa 30 il ərzində bir dəfə belə olsun Ermənistanı apardığı qeyri-qanuni işğal siyasətinə görə qınamayıb"



**"Aprelin 28-də Fransanın Avropa və xarici işlər naziri Katrin Kolona və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın birgə mətbuat konfransında Fransa naziri tərəfindən səslənmiş əsassız iddialar qəbuledilməzdir".**

"Şərq" xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin Fransa və Ermənistan xarici işlər nazirlərinin birgə mətbuat konfransı zamanı Fransa naziri tərəfindən səsləndirilən əsassız iddialara dair şərhində əksini tapıb.

(səh.2)

# 138 gündən sonra ekofəallar aksiyanı dayandırdı

Laçın yolunda post qurulduqdan sonra aksiyanın missiyasını tamamlanmış hesab etmək olar




**Laçın-Xankəndi yolunda təşkil olunan və 138 gündür davam edən ekoloji aksiya dayandırılıb.** Dünən aksiya iştirakçılarının bir qrupu ilə Azərbaycanın dövlət nümayəndələri arasında növbəti görüş keçirilib. Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəliyinin inzibati binasında keçirilən görüşdə aksiya iştirakçılarını təmsil edən 10 ekofəal iştirak edib.

Prezidentin xüsusi nümayəndəsi Aydın Kərimov Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin qurulması ilə əlaqədar yeni vəziyyətin yarandığını qeyd edib. Buna görə də iştirakçılara aksiyanın dayandırılması bir daha təklif olunub.

(səh.4)

# Parisin Ermənistan sevgisi dəyişməyib

Fransalı nazir işğaldan azad olunmuş Azərbaycan ərazilərinə də gedə bilərdi



**"Fransa xarici işlər nazirinin Azərbaycan və Ermənistana səfəri keçirərək Zəngəzura getməsi onu göstərir ki, rəsmi Paris tamamilə ikibaşlı oyun oynayır və regionda sülhə töhfə verə bilməsi real deyil".**

*Bunu "Şərq"ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə İrəvanda səfərdə olan Fransanın xarici işlər naziri Ketrin Kolonnanın Ermənistan-Azərbaycan sərhədinə gəlməsindən danışarkən deyib.*

(səh.4)



## Şimali Kipr Türk Respublikası TÜRKPA-ya müşahidəçi üzv seçilib

**Şimali Kipr Türk Respublikası Türk Dövlətləri Parlament Assambleyasına (TÜRKPA) müşahidəçi üzv seçilib.**

Bu barədə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı tviterdə paylaşım edib.

"Kipr türkləri türk dünyasının ayrılmaz bir parçasıdır. Şimali Kipr Türk Respublikasının TÜRKPA-ya müşahidəçi üzvlüyü xeyirli olsun. Birlikdə güclüyük!" - paylaşımda bildirilir.

## TƏBİB: Qızılca ilə bağlı Azərbaycanda vəziyyət nəzarət altındadır



**Qızılca ilə bağlı ölkəmizdəki vəziyyət nəzarət altındadır.**

Bunu TƏBİB-in Tibbi xidmətlərin inkişafı departamentinin rəhbəri Yaqut Qarayeva deyib.

Onun sözlərinə görə, qonşu ölkələrdən yoluxma ilə bağlı xəbərlər eşidilir:

"Bunun səbəbi bəzi ölkələrdə vaksinə əlçatanlıqla bağlı problemin olmasıdır. Bizdə isə vaksinlə bağlı hansısa problem yaşanmır".

## Ən yaxşı variant qızıl alıb saxlamaqdır

Banklara qoyulan pul rentabelli deyil



**Əhalinin banklardakı əmanətlərinin həcmində uzun müddətdən sonra azalma müşahidə olunub.**

Ekspertlər bu amili depozitlərə tətbiq edilən vergi qərarı ilə əsaslandırırlar. Bəzi depozit sahiblərində belə bir yanaşma formalaşıb ki, vergi depozit məbləğinə tətbiq olunur. Ekspertlər hesab edir ki, banklar tərəfindən məlumatlandırma düzgün qurulsaydı, depozit məbləğində azalmalar müşahidə olunmazdı.

(səh.7)



## Vahid Əhmədova töhmət verilib

Deputatın müsahibədə səsləndirdiyi fikirlər qəbuledilməz sayılıb

(səh.4)



## Qarabağda növbəti təxribatlar ola bilər

Rusiya Qərbin moderatorluğu ilə sülh sazişinin bağlanmasını istəmir

(səh.4)





# "Biz olmayan yerdə siz varsınız"

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qələbələrini Azərbaycana həsr etmiş Türkiyə idmançıları ilə görüşüblər

**Aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İrəvanda keçirilmiş ağır atletika üzrə Avropa çempionatında qələbələrini Azərbaycana həsr etmiş Türkiyə idmançıları ilə görüşüblər.**

**Azərtac xəbər verir ki, türkiyəli idmançıları salamlayan Prezident İlham Əliyev dedi:**

-Mən sizi salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Siz Ermənistanda keçirilmiş Avropa çempionatında şanlı Türk Bayrağını göylərə qaldırmısınız, Milli Marşı səsləndirmisiniz. Bu münasibətlə sizi bütün Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Eyni zamanda, bu qələbəni Azərbaycana həsr etmisiniz. Bu, bizi xüsusilə sevindirən bir haldır. Bu, bir daha onu göstərir ki, Türkiyə-Azərbaycan - iki qardaş ölkə bütün məsələlərdə bir yerdədir. Biz olmayan yerdə siz varsınız, siz olmayan yerdə biz varıq. Biz birik, biz müttəfiqik, biz qardaşıq.

Sizin qələbənizin xüsusi önəmi var. Siz gənc idmançılarsınız, sizin həyatınızda hələ neçə-neçə qələbələr olacaq, amma bu qələbənin özəlliyi var. Çünki Azərbaycana qarşı, bizim milli rəmz olan Bayrağımıza qarşı hörmətsizlik olunan zaman siz ədaləti bərpa etmisiniz. Türk Bayrağının orada qaldırılması ədaləti bərpa etmək idi. Türkiyə dövlətinin Milli Marşının səsləndirilməsi bütün orada oturanları ayağa qaldırdı. Bizim Bayrağımızı yandırdılar, amma bizim üçün öz Bayrağımız qədər əziz olan Türk Bayrağı orada dalğalandı. Bunu da siz etmisiniz, gözəl gənclər, qardaş ölkənin nümayəndələri.

Bildiyiniz kimi, Mehriban xanım və mən sizi məktubla təbrik etdik, Azərbaycana dəvət etdik. Şadam ki, siz bizim dəvətimizi qəbul edib Azərbaycana, öz doğma Vətəninizə gəlmisiniz və sizin bu gəlişiniz bir daha bizim birliyimizi göstərir.

Bayraq yandırmaq heç kimə şərəf gətirmir. Bu gün bizim bayraqlarımız, iki qardaş ölkənin bayraqları - Türkiyə, Azərbaycan bayraqları Ağrı dağda, Murov dağında, Zəngəzur dağlarında, Şuşada bir yerdə dalğalanır və əbədi dalğalanacaq, hər zaman bir yerdə.

Sizi bir daha ürəkdən təbrik etmək istəyirəm. Bir daha Türkiyə-Azərbaycan birliyini nümayiş etdirdiyiniz üçün mən sizi Azərbaycan dövlətinin yüksək nişanı olan "Tərəqqi" medalı ilə təltif edirəm və indi bu medalı sizə təqdim etmək istəyirəm.

***

Sonra türkiyəli idmançılar Cansu Bektaş, Qamze Altun və Nuray Güngörün İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatında qələbələrini Azərbaycan və Türkiyə arasında sarsılmaz qardaşlıq münasibətlərinin təzahürü kimi Azərbaycana həsr etdiklərinə görə "Tərəqqi" medalı ilə təltif edilmələri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı oxundu.

*Prezident İlham Əliyev medalları türkiyəli idmançılara təqdim etdi.*

*Daha sonra xatirə şəkli çəkdirildi.*

***

**Türkiyə Ağır Atletika Federasiyasının prezidenti Talat Ünlü:** Bizim də hədiyyələrimiz var, cənab Prezidentim, onları da verərdik. Hörmətli cənab Prezidentim. Bu, Ermənistanda qazandığımız ilk qızıl medallardan biridir. Cansu qızımızın ərməğan etdiyi medaldır. Bunu ölkəm, ağırlıqqaldırma qurumumuz və Cansu adından qəbul etməyinizi Sizdən xahiş edirəm.

**Prezident İlham Əliyev:** Çox təşəkkür edirəm, çox sağ olun.

**Mehriban xanım Əliyeva:** Çox sağ olun.

**Talat Ünlü:** Bu medal günün anlamı və önəmi üçün çox vacibdir. Bilirsiniz, orada Azərbaycan Bayrağına qarşı törədilən hücum hamımızı dərindən kədərləndirdi. Həmin gecə biz azərbaycanlı qardaşlarımızla birlikdə eyni hissləri yaşadıq. İndi də danışdıqca insanın tükləri biz-biz olur. Uşaqlarımız əzmkarlıq göstərdilər və gözəl nəticələr əldə etdilər. Allaha çox şükür. İnşallah, bundan sonra da birliyimiz, bərabərliyimiz, - hər zaman bunu söyləyirik, - iki dövlət, bir millət, amma birlikdə iri, diri və güclü olmalıyıq.

**Prezident İlham Əliyev:** İnşallah.

**Mehriban xanım Əliyeva:** İnşallah, amin.

**Talat Ünlü:** Bilirik ki, bizim Prezidentimizlə Siz qardaşsınız. Bu, bizim üçün çox önəmlidir. Bunu qəbul etməyinizi xahiş edirəm.

**Prezident İlham Əliyev:** Doğrudur. Çox sağ olun, təşəkkür edirəm. Bunu bizim idman muzeyində qoymalıyıq. Bu, Türkiyə-Azərbaycan birliyinin növbəti simvoludur və bizim gənclərimizin yüksək keyfiyyətə malik olmasının təzahürüdür. Bax, ağır bir yarışda qazanılmış bu medalı bizim Cansu qızımız Azərbaycana ərməğan etdi. Sağ ol. Bütün Azərbaycan xalqı səni sevir, sən bilirsən, sizin hamınızı. Çox sağ olun.

**Cansu Bektaş:** Mən də onları çox sevirəm.

Türkiyə Ağır Atletika Federasiyasının vitse-prezidenti Yasin Arslan: Bu da bizim federasiyamızın - Türkiyə Ağır Atletika Federasiyasının loqosudur, cənab Prezidentim. Xahiş edirəm, bunu da qəbul edəsiniz.

**Prezident İlham Əliyev:** Çox təşəkkür edirəm.

**Talat Ünlü:** Bu, Mehriban xanıma hədiyyədir.

**Mehriban xanım Əliyeva:** Çox sağ olun, çox təşəkkür edirəm. Mən onu geyinim, bərabər şəkil çəkdirək. Çox sağ olun.

**Talat Ünlü:** Bu da günün anlam və önəmi üçün, cənab Prezidentim, Sizə ölkəmizin milli forması.

Sonra görüş çay süfrəsi arxasında davam etdirildi.

**Prezident İlham Əliyev:** Bir daha təbrik edirəm. Siz doğrudan bütün Azərbaycan xalqını sevindirdiniz. Cansu qızımız söylədi ki, Azərbaycana ərməğan edirəm. Bütün Azərbaycan xalqının duyğularına toxundu, hamımızı xoşbəxt etdi. Biz Mehriban xanımla sizə yazdığımız məktubda qeyd etdik ki, sizinlə qürur duyuruq. Həqiqətən belədir.

**Talat Ünlü:** Hörmətli cənab Prezidentim, həm Mehriban xanıma, həm də Sizə ölkəm adından, idmançıların adından çox təşəkkür edirəm. Bizi çox xoşbəxt etdiniz. Çünki belə bir gündə bizi buraya dəvət etməyiniz, burada qonaq qəbul etməyiniz çox böyük bir məna və önəm daşıyır. Orada ən çox üzücü olan bayrağımızın yandırılması təbii ki, içimizi yandırdı.

**Prezident İlham Əliyev:** Bəli, bir də ki, o bayrağı yandırana hər hansı bir cəza da verilmədi, heç bir şey edilmədi, heç bir söz də deyilmədi, əksinə, onu alqışlarla salamladılar. İndi, bilirsiniz, bayraq yandırmaqla heç kim heç nə əldə etmir. 24 apreldə Azərbaycan və Türkiyə bayraqlarını Ermənistanın əsas meydanında yandırmışdılar. Amma bizim bayraqlarımıza onlar Ağrı dağda, mən dedim, Murov dağında, Şuşada yaxınlaşa bilərlərmi? Təbii ki, yox. Ona görə bu, onların acizliyini göstərir, gücsüzlüyünü göstərir.

Bizim qızlarımız orada bayrağı qaldırdılar və Türkiyənin Milli Marşı səsləndə bütün orada oturanları ayağa qaldırdı. Bax, zəfər budur, qürurverici hallar budur. Bizim dövlətlərimiz də, xalqlarımız da bu zəfərə layiqdir. İkinci Qarabağ savaşında Türkiyə həmişə bizim yanımızda idi, bütün digər məsələlərdə, idmanda hər zaman bir yerdə.

İndi mən sizi növbəti dəfə Qarabağa dəvət edirəm. Arzu edirəm ki, növbəti gəlişiniz Qarabağa olsun. Orada da görərsiniz ki, Şuşa şəhərində Türkiyə və Azərbaycan bayraqları yan-yana dalğalanır. Bu, xalqlarımızın qəlbində olan böyük sevginin təzahürüdür.

# Xeyrə gəlməyib

## Lentsovun Qarabağa göndərilməsi ciddiyə alınmalıdır



"Biz Laçında qurulmuş sərhəd-keçid məntəqəsini möhkəmləndirməli və sərhədlərimizə nəzarəti tam həyata keçirməliyik"

**Rusiya sülhməramlı kontingentinin yeni komandanı, general-polkovnik Aleksandr Lentsov əvvəlcə Qarabağa, oradan İrəvana yollanıb. Lentsov Ermənistanda müdafiə naziri Suren Papikyanla görüşüb. Görüşdə Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin, attaşe İqor Şerbakov və sülhməramlıların keçmiş komandanı Andrey Volkov iştirak ediblər.**

Tərəflər Qarabağdakı vəziyyətlə bağlı məsələləri müzakirə ediblər. Həmçinin Laçın yolundakı durumdan və sülhməramlıların Qarabağdakı fəaliyyətinin səmərəliliyinin artırılmasından danışılıb. Lentsovun Xankəndidə xoş qarşılanmadığı deyilir. Separatçıların rəhbəri Araik Arutyunyanla görüşdükdən sonra o, son vaxtlar Rusiyanı kəskin tənqid edən Tiqran Petrosyanla bir araya gəlib. Petrosyan görüş zamanı generala Rusiya sülhməramlılarının Qarabağda etimadının qalmadığını bildirib. Lentsov isə Qarabağa məhz Laçın yolu ilə bağlı böhranın aradan qaldırılması üçün gəldiyini deyib. Qeyd edək ki, Petrosyan Paşinyanın adamı sayılır. O, Lentsovun gəlişindən bir gün öncə qondarma rejimin "antiböhran şurasına rəhbəri" təyin edilib.

**Azərbaycan Demokratik Partiyasının sədr müavini Həsrət Rüstəmov "Şərq"ə açıqlamasında bildirib ki, Rusiya Qarabağa əvvəlkilərdən daha təcrübəli və rütbə baxımından daha yüksək hərbçini rəhbər göndərməklə Cənubi Qafqazın bu dövlət üçün əhəmiyyətli olduğunu, regiondan əl çəkməyəcəyini nümayiş etdirir. Politoloq diqqətə çatdırıb ki, Rusiyanın indiki çətin durumda əhəmiyyətli sayda hərbi qüvvəni Ukrayna cəbhəsindən kənarda saxlaması bu fikri təsdiqləyir:**

"Lentsovun ilk olaraq İrəvana getməsi Ermənistanı dilə tutaraq Qarabağ məsələsində geri durmamalarını təmin etmək məqsədi daşıyır. Həmçinin erməniləri separatizmə daha çox həvəsləndirmək niyyətindən xəbər verir. Son vaxtlar Nikol Paşinyanın bəyanatlarından aydın olur ki, İrəvan Qarabağda erməni separatizmini Rusiyanın maraqlarına uyğun şəkildə dəstəkləməkdə maraqlı deyil. İrəvan başa düşür ki, Rusiya yalançı dəstək göstərməklə bölgədə sülhün əldə olunmasını gecikdirir. Bu isə bölgə dövlətlərinin, o cümlədən Ermənistanın maraqlarına ziddir. Amma Lentsovun İrəvanda nə isə əldə edib-etməyəcəyini proqnozlaşdırmaq çətindir. Çünki erməni hökumətinin tez-tez mövqe dəyişdirməsi adət halını alıb. Əsas məsələ odur ki, biz Laçında qurulmuş sərhəd-keçid məntəqəsini möhkəmləndirməli və ümumiyyətlə, sərhədlərimizə nəzarəti tam həyata keçirməliyik. Həmçinin Rusiyaya və dünyaya bölgədə başqa dövlətlərin hərbi güc saxlamasının yolverilməz olduğunu tez-tez xatırlatmalıyıq".

İsmayıl Qocayev



# Azərbaycan XİN Fransa xarici işlər nazirinə cavab verib

## "Fransa 30 il ərzində bir dəfə belə olsun Ermənistanı apardığı qeyri-qanuni işğal siyasətinə görə qınamayıb"

**"Aprelin 28-də Fransanın Avropa və xarici işlər naziri Katrin Kolona və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın birgə mətbuat konfransında Fransa naziri tərəfindən səslənmiş əsassız iddialar qəbuledilməzdir".**

"Şərq" xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin Fransa və Ermənistan xarici işlər nazirlərinin birgə mətbuat konfransı zamanı Fransa naziri tərəfindən səsləndirilən əsassız iddialara dair şərhində əksini tapıb.

"Azərbaycanı Ermənistanın ərazilərinə müdaxilədə ittiham edən əsassız iddiaları səsləndirənlərə 30 il ərzində işğal və etnik təmizləmə siyasətini aparan tərəfin Ermənistan olduğunu xatırlatmaq istərdik. Əfsuslar olsun ki, özünü münaqişənin həll olunması istiqamətində "səy" göstərən tərəf kimi göstərən Fransa tərəfi 30 il ərzində bir dəfə belə olsun Ermənistanı apardığı qeyri-qanuni işğal siyasətinə görə qınamayıb.

Xatırladaq ki, Ermənistan tərəfi indiyə qədər hələ də Azərbaycan ərazisindən silahlı qüvvələrini tam olaraq çıxarmayıb, Azərbaycanın 8 kəndini işğaldan azad etməyib və hərbi-siyasi təxribatları davam etdirir.

Bununla yanaşı, Azərbaycanın daxili işi olan öz suveren ərazisində sərhəd nəzarət-buraxılış məntəqəsi təsis etməsinə qarşı müdaxilə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə ziddir. Yola sərhəddən giriş-çıxış rejimini tənzimləyəcək bu məntəqənin təsis edilməsinin yolun bağlanması kimi qiymətləndirilməsi də tamamilə yanlışdır.

Fransa tərəfinin qərəzli yanaşmalar sərgiləməsi əvəzinə, Ermənistanı razılaşmalardan irəli gələn öhdəliklərin yerinə yetirməsini təşviq etməsi və Azərbaycana qarşı təxribatlardan çəkindirməsi daha faydalı olardı", - XİN-dən qeyd olunub.

# Normal mütəxəssis yetişdirə bilmirik

## Deputatlar universitetləri bitirənlərin "gününə ağladı"

**"Qabaqcıl ölkələrdəki uğurlu alimlərimizin potensialını AMEA dəyərləndirə bilmədi". Bunu Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev deyib. Komitə sədri bildirib ki, ali təhsil müəssisələrinin mütəxəssislərinin, professor-müəllim heyətinin bilik və bacarıqlarını harada artırdığı hələ də sual altındadır:**



"Tələbə diplom alır, amma bir müddət sonra deyirik ki, diploma güvənmirik, biliyinizi yoxlayırıq"

"Həmin şəxslər təkmilləşdirmə institutlarına gedərək bilik və bacarıqlarını artırmalıdırlar. Regionlarda müasir infrastruktura malik xəstəxanalar açılıb. Həmin xəstəxanalarda çalışan həkimlər müxtəlif ölkələrə göndərilməlidir ki, yeni bilik və səriştələr əldə etsinlər. Eyni zamanda Azərbaycanın savadlı alimləri var. Necə olur ki, azərbaycanlı alimlər dünyanın qabaqcıl ölkələrində böyük mərkəzlərə rəhbərlik edir, həmin ölkələrə milyonlarla dollar qazanc gətirirlər. Amma biz onların potensialından istifadə edə bilmirik?! Bu iş AMEA-ya həvalə edilmişdi, amma çox təəssüf ki, o yükü AMEA çəkə bilmədi. Çünki mərkəzi icra orqanı kimi o vəzifəni icra etmək iqtidarında deyildi".

**"Ali məktəb dərsliklərinin çapına indiyə qədər vəsait ayrılmayıb"**

Deputat Etibar Əliyev bildirib ki, ali məktəb dərsliklərinin çapına indiyə qədər vəsait ayrılmayıb. Onun sözlərinə görə, ali təhsil müəssisələrində ən böyük problem dərsliklərin çatmamasıdır: "Ali məktəb dərsliklərinin çapına indiyə qədər vəsait ayrılmayıb. Təhsilin İnkişafı Fondu yaradılıb. Ali məktəblər bu fonda vəsait köçürür. Fond bu dərslikləri çap etməlidir. Həmin vəsaitin layihələrin icrasına, mütəxəssislərin həyat şəraitinin yaxşılaşdırılmasına xərclənməsi yaxşıdır, yoxsa dərsliklərin çapına?".

E.Əliyev əlavə edib ki, tərbiyəçi müəllimlərin əməkhaqqılarının 40 faizini kəsirlər ki, ixtisasınız üzrə işləmirsiniz. O bildirib ki, hələ sertifikasiya aparılmamış belə bir addımın atılması doğru deyil: "Bununla bağlı böyük narazılıq var. Biz də bilirik ki, tərbiyəçi müəllimlərin 50 faizi öz ixtisası üzrə işləmir".

**"Universitetlərin bir çoxunda proqramlarla bağlı problemlər var"**

Deputat Ceyhun Məmmədov deyib ki, universitetlərin bir çoxunda proqramlarla bağlı problemlər var. Qeyd edib ki, universitetlərə muxtariyyətin verilməsi, dərsliklərin hazırlanması haqda təkliflər var: "Amma maraqlıdır ki, bizim universitetlərimiz bu prosesə nə dərəcədə töhfə verə biləcək? Bu gün mərkəzdən qaçma halları və pərakəndəlik bir çox hallarda özünü göstərir".

Deputat C.Məmmədov vurğulayıb ki, tələbə diplom alır, amma bir müddət sonra deyirik ki, diploma güvənmirik, biliyinizi yoxlayırıq: "Təhsilin hər üç pilləsində ciddi problem var. Nazirlik bu sahələrin idarə edilməsində öz funksiyasını tam yerinə yetirmir. Proseslər çox ləng gedir. Fərmanın üzərindən xeyli vaxt keçməsinə baxmayaraq, hesab edirəm ki, ciddi işlər görülməyib. Digər tərəfdən, sertifikatlaşdırma məsələsinə gəlincə, ali təhsil sahəsində ciddi problem var. Tələbə diplom alır, amma bir müddət sonra gəlib deyirik ki, biz sizin diploma güvənmirik və biliyinizi yoxlayırıq. Bizim universitetlərimiz normal mütəxəssis yetişdirə bilmir".

İsmayıl

# Səssiz əməliyyat

## Hakim yüksəkliklər nəzarətə götürüldü



Məqsəd odur ki, Laçında yaşayacaq insanlarımızın həyatına təhlükə yaranmasın, əhaliyə qarşı erməni təxribatlarının qarşısı alınsın

**Azərbaycan Ordusunun Laçın rayonu, Kiçik Qaladərəsi kəndi istiqamətində olduqca əhəmiyyətli 1516 metr və 1686 metr yüksəkliklərini nəzarətə götürməsi barədə məlumatlar yayılıb. Ekspertlərə görə, sözügedən iki yüksəkliyin Ordumuzun nəzarətinə keçməsi Qubadlı-Laçın yolunun təhlükəsizliyinin təmin olunması baxımından önəmlidir.**

Həmçinin digər mühüm mövqelərə nəzarət imkanının yaranması deməkdir. Məlumat üçün bildirək ki, bir ay öncə Ordumuz Ermənistanla sərhəddə yerləşən Laçının Cağazur və Zabux kəndləri arasında yerləşən bir neçə hakim yüksəkliyi, əsas və yardımçı yolları, eləcə də sərhədboyu geniş sahələri nəzarətə götürmüşdü. Cağazur və Zabux kəndləri Ermənistanın Gorus bölgəsi ilə Azərbaycanın Laçın şəhərini birləşdirən yolun üzərindən keçir. Həmçinin aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində, Laçın yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsi qurulub. Bu addım Ermənistanın Laçın yolundan qeyri-qanuni istifadə hallarının, Qarabağa silah-sursat və terrorçu daşımasının qarşısının alınması məqsədilə atılıb.

**Ehtiyatda olan polkovnik, Müdafiə Nazirliyinin Hərbi Polisinin keçmiş rəisi Rövşən Məhərrəmov "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycan-Ermənistan sərhədində, Laçın yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin qurulması böyük qələbədir. Polkovnikin sözlərinə görə, Laçın yolunda gediş-gəlişin Azərbaycanın nəzarətinə keçməsi və orada nəzarət-buraxılış məntəqəsinin fəaliyyətə başlaması elə-belə başa gəlməyib:** "Azərbaycan Ordusu bu müddət ərzində bölgədə bir neçə mühüm mövqeləri, yüksəklikləri nəzarət altına almışdı, alternativ yolları bağlamışdı. Dövlət sərhədinə gəlib çıxanadək bir çox önəmli mövqelər nəzarətimizə keçmişdi. İndi yeni yüksəkliklərin nəzarətimizə keçməsi yaxın dönəmdə Laçına və onun kəndlərinə köçəcək vətəndaşlarımızın təhlükəsizliyinin təmin edilməsinə xidmət edir. Məqsəd odur ki, Laçında yaşayacaq insanlarımızın həyatına təhlükə yaranmasın, əhaliyə qarşı erməni təxribatlarının qarşısı alınsın. Əfsuslar ki, hələ də ərazilərimizdə separatçılar, muzdlular, ermənilərin qanunsuz silahlı birləşmələri var. Rusiya sülhməramlılarının sayəsində erməni quldurları Qarabağda qalmaqda davam edir. Ona görə də təxribat ehtimalları, risklər nəzərə alınaraq zəruri addımlar atılır. Yəni Laçının kəndlərində yaşayacaq insanlarımız üçün harada təhlükə ehtimalı varsa, həmin bölgədə yüksəkliklər Ordumuzun nəzarətinə götürülür. Bu tədbirlər davamlı olacaq".

**İsmayıl Qocayev**

# Fransa illərdir Ermənistana dəstək verir

## Parisin Qarabağla bağlı heç vaxt ədalətli mövqeyi olmayıb

**Bakıdan sonra İrəvana səfər edən Fransa xarici işlər naziri Ketrin Kolonna Azərbaycanla sərhədə gəlib. Kolonna Avropa İttifaqının Mülki Missiyasının işi ilə tanış olub və missiyanın müsbət nəticələr verdiyini söyləyib. Onun sözlərinə görə, müşahidə fəaliyyəti sayəsində Aİ-yə üzv dövlətlər üçün faydalı olan məlumatları operativ əldə etmək imkanı verir:**



"Bu, müşahidə missiyasıdır, silahlı missiya deyil, məqsəd sadəcə olaraq vəziyyəti izləmək üçündür, lakin istənilən halda bu mövcudluq gərginliyi azaltmağa imkan verir. Etimadı yaratmaq üçün Azərbaycan və Ermənistan arasında atəşkəsə əməl edilməlidir". Fransanın XİN başçısı Azərbaycan və Ermənistana səfərinin məqsədindən də danışıb: "Paris bütün mübahisələrin danışıqlar yolu ilə həllini istəyir. Fransa Avropa İttifaqı ilə birlikdə bu ideyaya sadiqdir. Məhz bu çağırışı təkrarlamaq və danışıqları bərpa etmək üçün mən bu həftə Azərbaycan və Ermənistana səfər etdim". Kolonna bildirib ki, Ermənistanla Azərbaycan Praqada əldə edilmiş razılaşmanı möhkəmləndirməlidir: "Hesab edirik ki, əldə olunan bu nailiyyəti möhkəmləndirməli və prosesi davam etdirməliyik. Sərhədin delimitasiyası üzrə aparılan işlər Ermənistan və Azərbaycan arasında Praqada əldə olunmuş razılaşmaları möhkəmləndirməyə imkan verəcək". Onun sözlərinə görə, hamı qəbul edir ki, sülhə nail olmaq mürəkkəb və bəzən çox uzun bir prosesdir. Lakin bu, uzunmüddətli və sabit sülhə nail olmağa, hər iki ölkə xalqları üçün geniş perspektivlər açmağa imkan verəcək yeganə yoldur. Ermənistan xarici işlər naziri Ararat Mirzoyan isə deyib ki, İrəvan Rusiya və Qərbdəki danışıq platformaları arasında heç bir fərq görmür: "Yalnız bir sülh prosesi mövcuddur və eyni sülh müqaviləsi layihəsi ətrafında danışıqlar aparılır. Rəsmi İrəvan dialoq üçün platforma təmin edən və bu prosesdə vasitəçi olmağa çalışan bütün ölkələrə minnətdardır". Nazir vurğulayıb ki, Ermənistan tərəfi üçün danışıqların Moskvada, Vaşinqtonda və ya Brüsseldə aparılmasının fərqi yoxdur.

**AĞ Partiya sədri Tural Abbaslı "Şərq"ə deyib ki, Fransa xarici işlər nazirinin Cənubi Qafqaza gəlişini və səfərin Azərbaycandan başlamasını müsbət hal kimi dəyərləndirmək olar. Partiya rəhbəri qeyd edib ki, Fransanın illərdir Ermənistana dəstək verdiyi, hərtərəfli yardım göstərdiyi məlumdur:** "Fransa heç vaxt Qarabağ məsələsində Azərbaycanın yanında olmayıb. Baxmayaraq ki, Azərbaycan Fransada mədəni quruculuq işlərində çox fəal iştirak edib. Tarixi Luvr muzeyinin bərpasına kifayət qədər maliyyə ayırıb. Rəsmi Paris indiyədək Bakının humanist addımlarına adekvat cavab verməyib. Ancaq Fransa XİN başçısı Ketrin Kolonnanın Cənubi Qafqaza səfəri ondan xəbər verir ki, rəsmi Paris regionda yaranmış yeni geosiyasi reallıqları öz gözü ilə yaxından görmək istəyir. Fransa təmsilçisi Bakıya yeni reallıqları dəyərləndirmək üçün gəlib. Həm dövlət başçısı İlham Əliyevlə, həm də həmkarı Ceyhun Bayramovla görüşü zamanı Azərbaycanın mövqeyi fransalı qonağın diqqətinə çatdırılıb. Əlbəttə, Fransa kimi bir ölkəni təmsil edən şəxsin birdən-birə 180 dərəcə dəyişməsini, Azərbaycanı müdafiə etməsini gözləmirik. Aydın məsələdir ki, Kolonna İrəvanda keçirəcəyi görüşlərdə Ermənistanın mövqeyini müdafiə edəcək. Ancaq bunun belə davam etməyəcəyi də məlumdur. Mümkündür ki, bu səfərdən sonra rəsmi Paris Cənubi Qafqaz siyasətinə yenidən baxsın. Ən azından öz maraqları çərçivəsində Azərbaycana qarşı qərəzli münasibətdən nisbətən uzaqlaşsın. Onsuz da əlaqələr kifayət qədər gərgindir və bizim itirəcəyimiz heç nə yoxdur. Fransa öz siyasətinə nəzər yetirməli və redaktələr etməlidir".

**İsmayıl Qocayev**

# Banklarda anormal vəziyyət bitmir

## "Ümid edirəm, Mərkəzi Bank, Banklar Assosiasiyası baş verənlərin fərqindədir"

**"Siz hansısa bankdan kredit alsanız, dərhal banklararası kommunikasiya işə düşür. Sizin digər banklardakı kredit tarixçəniz haqqında, bütün nəsil-nəcabətiniz haqqında məlumat mübadiləsi aparılır, dövlətin digər datalarına sizin haqqınızda sorğular göndərilir, sizin haqqınızda banklarda olan bütün data bir anda bir yerə toplanır".**



*Bu sözləri "Şərq"ə açıqlamasında Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyib. Onun sözlərinə görə, bank özünü, öz pulunu sığortalamaq üçün bütün mümkün olan və olmayan addımları atır:* "İndi təsəvvür edin ki, müştərisi olduğunuz bank özünün deyil, sizin pulunuzla bağlı qərar verməlidir. Məsələn, sizin vergi borcunuzla bağlı Dövlət Vergi Xidmətindən bankınıza daxil olan sorğuyla bağlı qərar verməlidir.

Bankınız dərhal, heç bir araşdırma etmədən, sizin hesabınız olan (ola biləcək) digər bir banka sorğu göndərmədən, bu vergini digər bir bankınız vasitəsilə ödədiyinizi araşdırmadan, hesabınızdan bir anda pulu silir. Eyni addımı, hesabınız olan digər bank da atır, o da dərhal, sorğu-sualsız, hesabınızdan vəsaiti vergiyə yönəldir. Yəni nə qədər hesabınız varsa, o qədər də vergi ödənişləri reallaşır.

Hətta bununla da bu cür anormal vəziyyət bitmir. "KapitalBank" bu sahədə daha "irəliyə" gedib və "innovativ" həllər kəşf edib. Bu bank vergidən daxil olan sorğu əsasında nəinki müştərinin hesabından pulu silir, hətta eyni anda onun bu hesaba bağlı olan kartından da həmin vəsaiti vergiyə yönəldir. Bu da bizim ən öndə gedən bankların innovativliyi və rəqəmsal bankçılığı!

Ümid edirəm, Mərkəzi Bank, Banklar Assosiasiyası baş verənlərin fərqindədir".

**Şəymən**



# Müasir müharibəyə hazırıq

## Azərbaycanla Türkiyənin birgə PUA-lar istehsal etməklə bağlı qərarı böyük hədəflərdən xəbər verir

**Azərbaycan və Türkiyə birgə pilotsuz uçuş aparatları (PUA) istehsal edəcək. Bu barədə Türkiyənin "Baykar" şirkəti məlumat yayıb. Bildirilib ki, bununla bağlı Azərbaycan Müdafiə Nazirliyi ilə Türkiyənin "Baykar" şirkəti arasında niyyət protokolu imzalanıb.**

Sənədi Azərbaycan müdafiə nazirinin müavini Aqil Qurbanovla "Baykar" şirkətinin baş direktoru Haluk Bayraktar imzalayıblar. Mərasimdə Azərbaycan müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələri Komandanı general-leytenant Ramiz Tahirov da iştirak edib.

**Ehtiyatda olan polkovnik, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini Cəlil Xəlilov "Şərq"ə deyib ki, Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlığın sürətlə genişləndiyi, yeni sahə və sferaları əhatə etdiyi məlumdur. Polkovnik vurğulayıb ki, iki qardaş dövlətin birgə PUA istehsal edəcəyi faktı da bu əməkdaşlığın miqyasından, inkişaf tempindən xəbər verir:** "Hesab edirəm ki, Azərbaycanla Türkiyənin birgə PUA istehsalı hər iki dövlətin hərbi qüdrətinin artmasına, onun müdafiə qabiliyyətinin yüksəlməsinə öz müsbət təsirini göstərəcək. Bildiyiniz kimi, PUA-lar müasir müharibələrin ayrılmaz tərkib hissəsidir. Bu gün elə bir müharibə yoxdur ki, onları PUA-larsız təsəvvür etmək mümkün olsun. Bu gün Ukrayna-Rusiya müharibəsində hər iki tərəfin PUA-lardan geniş istifadə etməsi bu texnologiyanın hərbi əməliyyatlardakı önəmindən xəbər verir. Bizim üçün sevindiricidir ki, qardaş Türkiyə dövləti PUA istehsalı sahəsində böyük təcrübəyə malikdir. Bu gün Türkiyə istehsalı olan "Bayraktar-TB 2" PUA-ları dünyanın onlarla ölkəsinə ixrac edilməkdədir. Daha onlarla dövlət isə bu PUA-ları almaq üçün növbəyə düzülüb. Bu onu göstərir ki, Türkiyə, həqiqətən də, PUA istehsalı sahəsində dünya liderlərindən biridir və bu sahədəki uğurlarını sürətlə genişləndirməkdədir. Bu baxımdan Azərbaycanın Türkiyə ilə birlikdə PUA istehsalı həyata keçirməsi ölkəmizin maraqları baxımından ikiqat əhəmiyyətə malikdir".

**C.Xəlilov bəyan edib ki, PUA istehsalı Azərbaycanın onsuz da güclü olan hərbi sənayesinin daha da güclənməsinə, bu istiqamətdə də ciddi üstünlüklər əldə etməsinə səbəb olacaq:** "Bildiyiniz kimi, Azərbaycan müdafiə qabiliyyətinin mütəmadi şəkildə gücləndirilməsini həyata keçirir, bu istiqamətdə böyük vəsaitlər sərf edir. Bir müddət bundan öncə dövlət başçısı öz müsahibəsində də bildirmişdi ki, büdcəyə əlavələr fonunda hərbi sahəyə də vəsaitlər ayrılacaq. Ölkə başçısı hər zaman bildirib ki, müdafiə və təhlükəsizlik məsələləri dövlət üçün prioritet sahələrdən biridir və bu sahələrə nə qədər lazımdırsa, o qədər maliyyə vəsaiti ayrılacaq. PUA istehsalı da bilavasitə müdafiə və təhlükəsizliyimizə hesablanan bir addımdır. Bu yenilik Azərbaycanın regiondakı hərbi liderlik mövqeyinin daha da güclənməsinə səbəb olacaq".

**İsmayıl Qocayev**

# Ermənistan rəhbərliyi yeni himayədar axtarışındadır

## "İrəvan anlamalıdır ki, başqa variant yoxdur, Ermənistana təhlükəsizlik qarantiyasını ancaq Azərbaycan və Türkiyə verə bilər"

**Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ölkəsinin çox çətin vəziyyətdə olduğunu deyib. O bildirib ki, Ermənistanı qorumalı olan təhlükəsizlik mexanizmləri işləmir.**



Ona görə də Ermənistan yeni təhlükəsizlik zəmanətləri axtarışındadır: "Bizi Qərbə yönəlməkdə ittiham edirlər, lakin biz Hindistanla da intensiv əməkdaşlıq edirik. Biz təhlükəsizlik problemlərimizi həll etmək baxımından müxtəlif sahələrdə əməkdaşlıq edirik". Qriqoryanın sözlərinə görə, Rusiya Federasiyası siyasi səviyyədə Ermənistanın təhlükəsizlik problemlərini həll edə bilməyəcəyini bəyan etmir: "Rusiya 2020-ci ildə Qarabağ sakinlərinə təhlükəsizlik zəmanəti vəd edib. Qarabağın erməni sakinləri də bu zəmanətlərə qulaq asaraq geri qayıdıblar. Amma bu zəmanətlər işləmir". Qriqoryan Laçın yolunda baş verən bütün hadisələrə görə məsuliyyətin Rusiyanın üzərinə düşdüyünü qeyd edib: "Rusiya regionda qalarsa, başqa cür hərəkət etməlidir".

**Qriqoryanın açıqlamasını "Şərq"ə dəyərləndirən politoloq Azər Qasımov bildirib ki, Ermənistan rəhbərliyinin yeni himayədar axtarışı onu göstərir ki, onlar başlarına gələnlərdən dərs almayıblar. Analitik vurğulayıb ki, on illər boyu arxalandıqları Rusiya, Fransa, hətta dünyadakı erməni lobbisi Azərbaycan-Türkiyə tandeminin qarşısında duruş gətirə bilmədi. Halbuki arxalandıqları ölkələr özlərini dünyanın ağası hesab edirdilər:** "Azərbaycan bütün bu "təhkükəsizlik" qalxanını 44 günə darmadağın edərək açıq və qəti qələbə qazandı. İndi Ermənistan "yeni təhlükəsizlik mexanizmi" axtara-axtara gedib Hindistana çıxıb. Bunlar anlamır ki, Ermənistanın taleyi Azərbaycan və Türkiyədən asılıdır. Ermənistana təhlükəsizlik qarantiyasını ancaq Azərbaycan və Türkiyə verə bilər, başqa ölkələr yox. Başqa ölkələrin Ermənistandan alət kimi istifadə etdiyini toplum ölkədə axırıncı erməni qalanda anlayacaqlar, amma onda da gec olacaq".

Ekspertin sözlərinə görə, Ermənistanın gələcəyi Azərbaycan və Türkiyə ilə normal münasibətlər qurmaqdan keçir: "Başqa yolu seçmək təsadüfən "dövlət" sahibi olmuş erməni toplumu üçün məhvedici olacaq. Ümid edirik, erməni toplumu əlindəki son fürsəti də ağılla istifadə edib, normal dövlət olacaq. Əks halda, dövlət olmaq bir yana, heç indiki kimi dövlətcik belə qala bilməyəcəklər. İndi Azərbaycana yalvarıb 29 min kv.km ərazilərinin tanınmasını istəyirlər. Belə davam etsələr, yaşayacaqları ərazi dəhliz şəklində olacaq".

**İsmayıl Qocayev**



# 138 gündən sonra ekofəallar aksiyanı dayandırdı

## Laçın yolunda post qurulduqdan sonra aksiyanın missiyasını tamamlanmış hesab etmək olar

**Laçın-Xankəndi yolunda təşkil olunan və 138 gündür davam edən ekoloji aksiya dayandırıldı. Dünən aksiya iştirakçılarının bir qrupu ilə Azərbaycanın dövlət nümayəndələri arasında növbəti görüş keçirilib. Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəliyinin inzibati binasında keçirilən görüşdə aksiya iştirakçılarını təmsil edən 10 ekofəal iştirak edib.**

Prezidentin xüsusi nümayəndəsi Aydın Kərimov Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin qurulması ilə əlaqədar yeni vəziyyətin yarandığını qeyd edib. Buna görə də iştirakçılara aksiyanın dayandırılması bir daha təklif olunub. Ekofəallar bildiriblər ki, Laçın-Xankəndi yolunun başlanğıcında sərhədçilərimiz tərəfindən sərhəd-nəzarət mexanizminin yaradılması, bununla da yolda hərəkət üzrə şəffaflığın, qanunun aliliyinin və hərəkətin təhlükəsizliyinin təmin edilməsi onları çox sevindirib. Buna baxmayaraq, ekofəallar qeyd ediblər ki, aksiya hədəfə tam olaraq çatmayıb. Onlar Rusiya sülhməramlılarının müvəqqəti nəzarətindəki Azərbaycan ərazilərində təbii sərvətlərimizin qanunsuz istismarına son qoyulmasını və Azərbaycanın aidiyyəti qurumlarının həmin ərazilərdə monitorinqinə imkan yaradılmasını sülhməramlı kontingentin komandanlığından tələb etdiklərini bir daha vurğulayıblar. Ekofəalların təmsilçiləri dövlət nümayəndələrinin dəfələrlə edilən çağırışına cavab olaraq, aksiyanın dayandırılması məsələsinə baxılması üçün aksiya iştirakçıları ilə ümumi məsləhətləşmələrin aparılmasına ehtiyac olduğunu bildiriblər. Daha sonra ekofəallar müzakirə olunan məsələlərlə bağlı məsləhətləşmələr apararaq aksiyanı müvəqqəti dayandırmaq qərarına gəliblər. Bununla bağlı bəyanat yayımlanıb. Bəyanatda vurğulanıb ki, ekofəallar və gənc könüllülər tələblərinə qismən nail olublar. Qeyd olunub ki, dövlət nümayəndələri tərəfindən dəfələrlə edilən müraciətləri nəzərə alaraq, etiraz aksiyasını müvəqqəti dayandırmaq barədə qərar qəbul edilib.




Siyasi şərhçi Asif Nərimanlı bildirib ki, Laçın yolunda post qurulduqdan sonra aksiyanın missiyasını tamamlanmış hesab etmək olar. Lakin müvəqqəti dayandırılması amilindən bir neçə nəticə çıxır: ”Laçın yolunda qurulan posta müdaxilə riskinə qarşı mülki vətəndaşlar yenidən ayaqlanacaq. Qarabağda Azərbaycanın suverenliyinə yaranacaq təhlükələrə qarşı xalq da ordu ilə birlikdə meydanda olacaq. Gözlənilməndir ki, qarşıdakı günlərdə ekoaksiyanın tələbi olan Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdəki mədənlərə giriş məsələsi gündəmə gətirilsin və bunun baş tutacağı ehtimalı bu dəfə daha yüksəkdir. Ekoaksiyanın nail olduğu nəticələri isə tarixi nailiyyət adlandırmaq olar. Laçın yolunda postun qurulmasına aparan yolda cığır açdılar. Qarabağda suverenliyimizin tam bərpa edilməsinə gedən yolda xalq faktorunun praktik olaraq önə çıxması presedentini diriltdilər”.

**İsmayıl Qocayev**

# İrəvan Rusiyadan sonra indi də Fransaya yalvarır

## Parisin Qarabağ məsələsinə qarışmasına imkan verilməyəcək

**“Erməni mediasında iddia edir ki, Vaşinqton sülh sazişinin imzalanması məqsədilə İrəvana təzyiqi artırıb. Həqiqətən, Vaşinqton məsələni uzatmadan Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasında maraqlı görünür. Azərbaycan da bunu istəyir”.**



Paşinyan Azərbaycanla sülh sazişi imzalamasa belə Qarabağda erməni separatizminə son qoyulacaq

*Bu barədə ”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Analitik bildirib ki, Ermənistan hakimiyyəti sözdə sülh istəsə də, əməldə Azərbaycanın ərazi bütövlüyünü tanıyacaq sazişi imzalamağı yubatmağa çalışır:* ”Baş nazir Nikol Paşinyanın fikrincə, sülh sazişi imzalandıqdan sonra Azərbaycan Qarabağda separatizmə son qoyacaq, ona görə sülh sazişiylə ”riskə” getmək istəmir. Paşinyan Azərbaycanla sülh sazişi imzalamasa belə Qarabağda erməni separatizminə son qoyulacaq. Bunun sülh sazişi ilə əlaqəsi yoxdur. İrəvanın Rusiyaya yalvarışları nəticə vermədiyinə görə indi də Fransaya yalvarır ki, Azərbaycanı Paris durdursun. İrəvan Parisə təklif edib ki, Fransa Qarabağ ermənilərinin təhlükəsizliyinə cavabdeh olsun. Həmçinin Laçın yoluna nümayəndələr göndərsin. Bu təkliflərin perspektivi yoxdur. Birincisi, Azərbaycan Fransanın Qarabağ məsələsinə qarışmasına imkan verməyəcək. Paris belə cəhdlər etsə, Azərbaycanla münasibətləri normallaşdıra bilməyəcək. İkincisi, Rusiya da münasibətləri gərgin olduğu Fransanın bölgədə möhkəmlənməsini elə Ermənistan üzərindən əngəlləməyə çalışacaq. Fransa təmsilçiləri bircə Laçın yoluna yaxınlaşıb sərhəd-keçid məntəqəmimizə məsafədən baxış həyata keçirə bilərlər. Buna etirazımız yoxdur. Əksinə, özləri müşahidə etsinlər ki, sərhəd humanitar məqsədlə istifadəyə açıqdır”.

**İsmayıl**

# Vahid Əhmədova töhmət verilib

## Deputatın müsahibədə səsləndirdiyi fikirlər qəbuledilməz sayılıb



**Aprelin 28-də Milli Məclisin İntizam komissiyasının iclası keçirilib. İclasda Milli Məclisin sədri Sahibə Qafarovanın müraciətinə əsasən, deputat Vahid Əhmədovun son müsahibəsində səsləndirdiyi fikirlərlə əlaqədar məsələyə münasibət bildirilib.**

Komissiya sədri Eldar İbrahimov diqqətə çatdırıb ki, Parlament haqqında Vahid Əhmədov kimi təcrübəli bir deputatın həmin müsahibədə səsləndirdiyi fikirlər qəbuledilməzdir. İclasda çıxış edən komissiya üzvləri Nizami Səfərov, Səttar Möhbalıyev, Nəsib Məhəmməliyev, Məşhur Məmmədov, Afət Həsənova, Madər Musayev, komissiyanın katibi Nurlan Həsənov bildiriblər ki, qanunvericiliyə əsasən, deputatın müsahibə vermək hüququ var və onun bu hüququ məhdudlaşdırıla bilməz. Lakin deputat verdiyi müsahibədə Milli Məclis deputatının etik davranış qaydalarına uyğun olmayan fikirlər söyləməməlidir. Deputat öz imicindən daha çox xalqın və dövlətin mənafeyini düşünməli, nəzərə almalıdır ki, deyilən fikirlər ölkəmizə düşmən münasibət bəsləyən qüvvələr tərəfindən bizim əleyhimizə istifadə oluna bilər.

Sonra Vahid Əhmədov çıxış edərək məsələyə öz münasibətini açıqlayıb. İclasın sonunda komissiyanın qərarı ilə deputat Vahid Əhmədova töhmət verilib.

**İsmayıl**

# Qarabağda növbəti təxribatlar ola bilər

## Rusiya Qərbin moderatorluğu ilə sülh sazişinin bağlanmasını istəmir

“Cənubi Qafqaz uğrunda dünyanın super gücləri arasında döyüş başlayıb”



**ABŞ Bakı ilə tezliklə sülh müqaviləsi imzalaması üçün İrəvana təzyiq göstərir. ”Bakupost.az” xəbər verir ki, Ermənistanın ”Hraparak” nəşri bu iddia ilə çıxış edib.**

Qəzet yazır ki, Vaşinqton tərəflərin may ayının sonuna qədər ilkin variantı təsdiq etmələrinə nail olmağa çalışır.

”Bu sülh planını bu yaxınlarda İrəvana, oradan isə Bakıya səfər edən ABŞ dövlət katibi köməkçisinin müavini Erika Olson özü ilə gətirmişdi.

Təfərrüatlar məlum deyil, lakin bəzi məlumatlara görə, sənəd Ermənistanın və Qarabağ ermənilərinin maraqlarına cavab vermir”, - deyə qəzet qeyd edir.

**Məsələni təhlil edən politoloq Azər Rəşidoğlu ”Şərq”ə bildirib ki, may ayında Vaşinqtonda Əliyev və Paşinyan arasında görüşün olacağı və həmin görüşdə sülh sazişinin müzakirə ediləcəyi barədə informasiya yayılmışdı:** ”Rəsmi İrəvan da bununla razılaşmışdı. Lakin Rusiya və Ermənistanın atdığı addımlar, təxribatlar bu görüşün olma ehtimalını azaltdı. Buna baxmayaraq, düşünürəm ki, istər İrəvan, istərsə də Bakı həmin təxribatlara rəğmən görüşün keçirilməsinə razılaşacaq. Ancaq Kremlin son zamanlar atdığı addımlardan görünür ki, Rusiya Vaşinqton və Brüsselin təqdim etdiyi sülh sazişinə tərəflərin imza atmasını istəmir. Bu baxımdan Vaşinqton görüşündə real nəticələr olarsa və yaxında gələcəkdə sülh sazişinin ilkin versiyası təsdiqlənərsə, Rusiya tərəfindən növbəti təxribatların olacağını ehtimal edirəm”.

Analitikin sözlərinə görə, rəsmi Moskva Qərbin moderatorluğunu istəmir: ”Çünki sülh sazişinin təqdim etdiyi təkliflər fonunda imzalanmasını arzulayır. Cənubi Qafqaz uğrunda dünyanın super gücləri arasında döyüş başlayıb. Bu savaşda tərəflər bir-birinin güclənməsini istəmir. Odur ki, Vaşinqton görüşü olsa belə yaxın vaxtlarda sülh müqaviləsinin imzalanacağını ehtimal etmirəm. Çünki buna Rusiya imkan verməyəcək”.

**Nihat Müzəffər**

# Bakıda taksilərin qiyməti 30 faiz bahalaşıb

## Ekspertlər hesab edir ki, gedişhaqqının artması müvəqqəti xarakter daşıyır

**Bakıda fəaliyyət göstərən taksi xidmətlərində gedişhaqqı artıb. Qiymətin bahalaşmasını taksi sürücüləri və sərnişinlər də ”Trend”ə təsdiqləyib. Onların sözlərinə görə, gedişhaqqı 30 faizə qədər bahalaşıb.**



”Sürücülər bildiriblər ki, hazırkı bahalaşma ”Formula-1” ilə bağlıdır. Belə ki, yarışla əlaqədar Bakıya çoxlu sayda turist gəlib. Bu səbəbdən də taksi xidmətlərindən istifadə artıb. İkinci səbəb kimi isə yarışların keçirildiyi mərkəzi yolların bağlı olması və benzin sərfiyyatının artmasıdır. Bu hal müvəqqətidir. Yarışlar bitdikdən sonra qiymətlər əvvəlki vəziyyətinə qayıdacaq”, - deyə qeyd edilib. Rəqəmsal İnkişaf və Rabitə Nazirliyindən isə bildirilib ki, taksi minik avtomobilləri ilə daşımalarda tariflər dövlət tərəfindən tənzimlənmir.

**Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov ”Şərq”ə açıqlamasında da qeyd etdi ki, taksi xidmətində gedişhaqqının artması müvəqqəti xarakter daşıyır:**

- Həqiqətən də, hazırda paytaxt yollarında sıxlıq və tıxaclar müşahidə edilir. Buna görə də taksi xidmətində də çətinliklər yaranıb. Ümumiyyətlə, taksi xidməti adətən dəyişən tariflərlə müşayiət olunur. Həftənin günlərindən, günün ”pik” saatlarından, hava şəraitindən asılı olaraq qiymətlər dəyişir. Bu, həmişə belə olub. İndi isə əlavə çətinliklər də var. Əsas yollar bağlıdır, sürücülər alternativ yollardan istifadə edir, məsələn, 15-20 dəqiqəyə qət edə biləcəkləri məsafəni, yarım saata, hətta daha uzun müddətə qət edirlər. Əlbəttə, bu həm yanacaq sərfidir, həm də əlavə vaxt itkisi. Ona görə də qiymətlərdə bahalaşma baş verib.

**E.Cəfərov taksi sürücülərinin əlavə xərclərini xarici turistlərlə kompensasiya edə bilmələri məsələsinə də toxundu:**

- Bəzən belə iradlar səslənir ki, yerli camaatla xarici turistlər xidmət haqqında fərqləndirilməlidir. Məncə, bu, düzgün deyil və istehlakçı hüquqlarının pozulmasıdır. Xarici turist də istehlakçıdır, onları maddi cəhətdən daha təminatlı hesab edib ”qiymət oxumaq” yanlışdır. Onların da istehlakçı kimi hüquqları var. Yerli əhaliyə bir, əcnəbiyə başqa tarif tətbiq etmək nə hüquqi baxımdan, nə də etik cəhətdən doğru olmaz.

**E.Cəfərov taksi xidmətindən istifadə edənlərə bir neçə gün gözləməyi tövsiyə etdi:**

- Mayın 15-dən sonra taksilərdə qiymətlər stabilləşəcək. Əvvəlki vəziyyət bərpa olunacaq.

**Məlahət Rzayeva**

# Parisin Ermənistan sevgisi dəyişməyib

## Fransalı nazir işğaldan azad olunmuş Azərbaycan ərazilərinə də gedə bilərdi

**“Fransa xarici işlər nazirinin Azərbaycan və Ermənistana səfəri, xüsusən Ermənistanda görüşlər keçirərək Zəngəzura getməsi onu göstərir ki, rəsmi Paris tamamilə ikibaşlı oyun oynayır və regionda sülhə töhfə verə bilməsi real deyil”.**



Ketrin Kolonnanın Zəngəzura getməsi Ermənistana birbaşa dəstək vermək mənası daşıyır

*Bunu ”Şərq”ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə İrəvanda səfərdə olan Fransanın xarici işlər naziri Ketrin Kolonnanın Ermənistan-Azərbaycan sərhədinə gəlməsindən danışarkən deyib.*

O bildirib ki, fransalı nazir əslində işğaldan azad olunmuş Azərbaycan ərazilərinə də gedə bilərdi: ”Şübhə etmirəm ki, Azərbaycan tərəfi ona bunu təklif edib. Amma o, Ermənistana səfəri çərçivəsində Zəngəzura və Azərbaycanla şərti sərhədlərə getdi. Bu da Fransanın siyasətində hansısa dəyişikliyin olmaması deməkdir. Yəni rəsmi Paris hələ də qızışdırıcı və qərəzli mövqeyindən əl çəkməyib”.

Analitikin sözlərinə görə, fransız nazirin Zəngəzura getməsi Ermənistana birbaşa dəstək vermək mənası daşıyır: ”O, ümumiyyətlə belə səfərlər etməməli və neytral qalmalıdır. Amma real olaraq biz görürük ki, xanım nazirin şərti sərhəddə gəlməsi sülh prosesinə zərbədir. Rəsmi Parisin bu kimi davranışları Azərbaycan tərəfində ciddi şəkildə narahatlıq doğurur. Belə çıxır ki, xanım nazirin Bakıda verdiyi mesajlar sadəcə olaraq bizim üçün manipulyasiya imiş. Ümumiyyətlə, Fransanın Azərbaycanla siyasətində müsbət dəyişikliklərin olmayacağını düşünürəm. Çünki onlar Ermənistanın yanındadırlar və dəstək verirlər”.

*Qeyd edək ki, İrəvanda səfərdə olan Fransa xarici işlər naziri Ketrin Kolonna Ermənistan-Azərbaycan sərhədinə gəlib. Burada xarici işlər naziri Kolonna Avropa İttifaqının Mülki Missiyasının işi ilə tanış olub.*

**Nihat Müzəffər**




# "İstəsəydim ev də alardım, ad da..."

## Vəli Xramçaylı: "Məndə olan şanslar heç kimdə olmayıb"

**Dünən şair Vəli Xramçaylı təşrif buyurmuşdu redaksiyamıza. İşin ən qızğın yeri idi. Xəbərlər üstümüzə ac canavar kimi hücum çəkir, redaktə olunmalı materiallar tökülüb qalırdı. Rutin işimiz, İP qovğası... Sözün həqiqi mənasında başımı qaşımağa vaxt yox idi. Qapı açılır, baş redaktorumuz Akif Aşırlı elə qapının ağzından dillənir:**

**- Ayyət, şair gəlib, biriniz müsahibə eləyin!**

*Açığı, işlərin çoxluğundan istədim uşaqlara yönləndirim, amma şairin baxışlarından oxudum ki, mənlə söhbətləşmək istəyir. Sən demə, doğum günü imiş. Və başladıq...*

**Şair, 68-i haqladınız..**

- Hə, haqladım, qəribə hisslər keçirirəm.

**- Nəylə bağlı?**

- Daha çox keçmişlə bağlı... Adı keçmiş olsa da, mənim üçün təzə-tər qalıb o xatirələr...

**- Hansı xatirələr?**

- Qardaşoğlu, "Azərbaycan" nəşriyyatı mənə çoxdan tanışdı. Ömrümün 40 ili tamam oldu burda.

**- Hə, nəşriyyata Vəlinin ocağı da deyirlər...**

- Elədi. "Şərq" qəzeti mənə doğmadı. Azərbaycanda mətbuat ənənələrini sıradan çıxmağa imkan verməyən, o prinsipləri yaşadan, qəzetçiliyin sancısını çəkən "Şərq"dir. Ümumiyyətlə, 40 il öncə gördüyüm mediadan əsər-əlamət qalmayıb.

**- Nə dəyişib ki?**

- Nə dəyişməyib ki?! Müasirləşdik, modernləşdik və bu dalğada çox şey itirdik. Doğrudur, qazandıqlarımız da oldu, amma itirdiklərimiz də az deyil. O dövrdə qəzetdə imzası görünmək böyük bir fəxarət idi. Amma bu gün sosial şəbəkələr və elekton KİV-lər meydana gəldi və bəzi qızıl qaydalar "çeynənildi". Hiss edirəm ki, qəzetləri sıradan çıxarmaq istəyirlər, bəlkə də, haradasa qəzetlər sıradan çıxıb. Amma yazılı mətbuatın yerini heç bir KİV quruluşu vermir. İndi "Şərq"də bir muzey yaratmısınız.

*Bu arada Baş redaktorun birinci müavini Yusif Nəzərli otaqdan çıxır:- Salam, ay şair!*

**Şairin cavabı:** - O vaxt "Şərq"də məndən gözəl bir müsahibə götürdülər, amma sonra vermədilər. Ancaq "Şərq" bir dəyərdi.

- **Şair, siz də "Ocaq" qəzeti buraxırdınız. Niyə söndürdülər "Ocaq"ınızı, heç olmasa, külü qalıbmı?**

- "Ocaq"ın külü qordu, onu bir az üfürsən, dünyanı başına götürər.

**- Bəs niyə üfürmürsünüz?**

- Müəyyən şərtlər vardı, biz ona uyğunlaşa bilmədik. Mən "Təbiət" jurnalında çalışırdım. Onda hər şey gözəl idi. Sonra ədəbi cameəni bir araya yığmaq üçün "Ocaq"ı yaratdıq. Yaxşı da çıxırdıq. Amma sosial-siyasi şərtlər imkan vermədi və özü yavaş-yavaş söndü. İqtisadi tənəzzül etdi. Amma biz yazılı mediadan uzaq düşməklə özümüzdən, kökümüzdən qopuruq. Ot kökü üstə bitər. Düzdür, mən modern adamam, yeni medianın əleyhinə deyiləm. Zamanla ayaqlaşmaq lazımdır. Zaman nəyi diktə edirsə, ayaqlaşmalısan. Hətta bir az da zamandan qabağa getmək lap yaxşı olar, lakin kökü və kötüyü unutmaq olmaz. Hər şey özülün, kökün üstündə olanda daha yaxşı olur. Ocağı kötüklə qalayarlar, çıl-çırpı ilə yox. Çırpının istisi müvəqqətidir. Tez alışır, tez də sönür, istisinə də qızınmaq olmur. Fundamentsiz "binalar" (oxu: media orqanları) xırda təkanda uçub dağılacaq.

**- Şair, mediadakı durum, aşağı-yuxarı sizə də, biz də, elə intellektual oxuculara da məlumdur. Bəlkə, ədəbi mühitdən danışaq?**

- Danışaq. Deyim ki, ədəbiyyata gəldiyimə görə iki nəfərə borcluyam.

**- Kimlərdir?**

- Onlardan biri Vaqif Cəbrayılzadədir.

**- Deyəsən, futbolçu olmaq istəmisiniz?**

- Anam məni futbolçu doğmuşdu, tale gətirdi şair elədi. Mənim şairliklə işim yox idi.

**- Bəs necə oldu şeir yazdınız?**

### "Əksər şair siyasi gediş elədi, ad da aldı, Parlamentdə mandat da. Kəramət də, Qəşəm də siyasət işlədirlər. Oğlu söyür, atası ev alır"

- Mən də şeir yazırdım. Amma ən gözəl şeirləri qardaşım Eldar Nəsibli qələmə alırdı. Sabir Rüstəmxanlı, Çingiz Alıoğlu, Nüsrət Kəsəmənli , Eldar Nəsibli 70-ci illər ədəbiyyatının nümayəndələri idilər. Mən yazdıqlarımı gizlədirdim. Öz dünyam vardı, edib-tutduqlarımı nə anamla, nə də atamla bölüşərdim. Bir nəslin yükü, Sibirin ağrı-acısı mənim çiynimdə idi. Tale elə gətirdi ki, sonradan hüquqşünas olmaq fikrinə düşdüm. Amma partiyaçı olmadığıma görə məni o fakültəyə qəbul etmədilər. Sonra qardaşım dedi ki, bizdən prokuror olmaz, bizim nəsildə ədəbiyyat güclü olub. Canımda həm də bir dərvişlik vardı. Bir tərəfdən futbolçu olmaq istəyirdim, bir tərəfdən də içimdə bir Yunus Əmrə yaşayırdı.

**- Bəs necə oldu ki, şairliyiniz üzə çıxdı?**

- İki qardaş - Eldar və mən "Varovski"də erməni evində kirayədə qalırdıq. Eldarın dostları da bizdə idilər. Şeirli bir gün idi, könül söhbəti edirdilər. Onlara dedim ki, bir tələbə yoldaşım var, yaxşı şeirlər yazır. Onun şeirinin çapına köməklik edin! Amma bu mənim öz şeirim idi. Həmin dövrdə bir şeirin çap olunmağı böyük uğur idi. Şeiri səsləndirdim. Süliddin Qasımlı da məclisdə iştirak edirdi. O bəyəndi. Əlini qulağının dibinə qoyub dedi ki, bu, tələbə şeiri deyil. Professional bir şairin düşüncəsindən süzülən məhsuldur. Sonra birini də dedim. Bunu da bəyəndilər.

**- Yadınızda qalıbsa, deyin biz də feyziyab olaq!**

- Heç yadımdan çıxarmı?! Şeiri səsləndirir:

**Hardasa dağları dağa sığınıb,**
**Üfüqə söykənən bir kənd yaşayır.**
**Hayanda olsam da, dağ cığırları**
**Fikrimi o yerlərə çəkir, daşıyır**
**İndi o yerlərdə toydu, mağardı**
**Dinir qara zurna bir yaz gecəsi**
**Hardasa vüsalın yolu ağardı**
**Gəldi sevənlərin bəyaz gecəsi.**
**Orda bir gözəlin ötdüm yanından**
**Dedilər nə yaman tələsir ki, bu**
**Hələ mürgülüdü hissi, duyğusu**
**Oyanıb təzədən gələsidi bu**

*Bunu dinlədikdən sonra bir şeir dəməyimi istədilər.*

*Dedim:*

**Bu axşam könlümün kövrək çağıdı**
**Bu axşam oduna alışam gərək**
**Külək buludları qovub dağıdıb**
**Uçan buludlara qarışam gərək.**
**Bu axşam yanımdan qaçan dincliyim,**
**Görəsən dünyanın harasındadı?!**
**Ölən məhəbbətim, itən gəncliyim**
**Qaçan buludaların arasındadı.**
**Vaxt olub günlərim quraqlıq keçib**
**O günü gözünə yağım təzədən**
**Başımın üstündən durnalar köçüb**
**Başımı qaldırıb baxım təzədən.**
**Sıldırım yollarda bükülməz dizim**
**Çətin ki, əhdimi könlüm unuda**
**Hardasa ot basmış cığırın-izin**
**Yaşadım yol olmaq arzusunu da.**
**Bu axşam könlümün kövrək çağıdı,**
**Bu axşam oduna alışam gərək.**
**Yersiz susduqlarım məni ağrıdır**
**Onun da yerinə danışam gərək.**

Qonaqlar gedəndən sonra Eldar dedi ki, nəyin var, mənə gətir. Eldar həm qardaşım, həm də dostum idi. Bildirdi ki, mənim şeirlərimin çap olunmasına kömək edə bilməyəcək. Söylədi ki, şeirlərini götür, Vaqif Cəbrayılzadənin yanına get, bəlkə, səni "Ulduz" jurnalıda çap eləsin. 10 şeirimi götürüb, getdim. O vaxt "Ulduz"un redaksiyası AYB-nin birinci mərtəbəsində idi. V.Cəbrəyılzadənin otağına daxil oldum. Onu şəxsən tanımırdım. Sözə, poeziyaya sona qədər sadiq qaldı. Öz içinə xəyanət etmədi. Vaqif dedi ki, şeirlərini oxu, görüm nə yazırsan?!

Birinci şeirimi səsləndirəndə pəncərədən çölə tullandı. Təzədən bir də otağa keçdi. İkinci şeirimi oxudum. Diqqətlə qulaq asdı. Bildirdi ki, sən mənim şairimsən.

**- Hansı şeir idi?**

**Həsrətəm qayıdıb dönən yoluna**
**Əlim əllərinə uzalı qalıb.**
**Daha sənin adına özgə ünvana**
**Xatirəm könülünə yazılı qalıb.**
**Yox, mən istəməzdim yollar bölünə**
**Hər yolun özünün yolçusu varmış**
**Mən ümidlə yaşadım, ancaq**
**Onun da bir həddi-ölçüsü varmış.**

Bunu oxuyanda Vaqif Cəbrayılzadə çox qəribə hiss keçirdi. Təəssüf ki, belə təmiz adamlar az yaşayırlar. Amma mən çox yaşadım.

**- 68 yaş nədir ki?**

- Şair üçün çoxdu.

- Şair üçün 50 bəsdi. İnsan fiziki olaraq 100 yaş da yaşaya bilər, amma sözün, şeirin yaşı 50-ni keçməməlidir. 50-dən o yana...*(gülüb, əl uzadır).*

Sonra V.Cəbrayılzadəyə bir şeir də oxudum:

**Bu dünyanın yolları var**
**Bir-birindən seçmək olmur**
**Körpüsü var var bu dünyanın**
**Körpüsündən keçmək olmur**
**Məzarı var bu dünyanın.**
**Unudulub baş daşı da**
**Torpağında yatır hələ**
**Bir gözəlin göz yaşı da**
**O göz yaşı yuxuludu.**
**Gül iyili, gül qoxuludu,**
**Gəl əl vurma qorxuludu,**
**Su götürər bu dünyanı.**

Vaqif dinləyib, qeyd elədi ki, Vəli, sən neyləmisən?

Şeirlərim "Ulduz" da çap olundu. 1980-ci ildən 1988-ci ilə kimi "Ulduz" jurnalının bir ulduz şairi vardı, o da Vəli Xramçaylı idi. Hər il şeirlərim çap olunurdu. Yusif Səmədoğlu da bu şeirlərimi oxuyub bəyənmişdi. Bundan sonra Vaqiflə mənim münasibətim yarandı. Gördüm ki, Vaqif dünyanın ən təmiz, ən saf adamıdı. O, axıra qədər pak, dür qaldı. Hətta Ramiz Rövşən də Vaqif Cəbrayılzadə kimi qala bilmədi. Əkrəmi də, Anarı da onun kimi olmadılar, ola bilmədilər. Allah Yusif Səmədoğluna rəhmət eləsin! Y.Səmədoğlu dedi ki, Vaqif, Vəli mənim şairimdi. Yusif Səmədoğlu mənim

**Bu yolda nə qazandım**
**Qoynunda bir ozandım**
**Sonuna yetəmmədim**
**Mən getdim o uzandı**

bu misralarımı "Yada düşər xatirələr" romanında epiqraf götürüb. O dövrdə Nizami Cəfərov da gənc tənqidçi idi. Nizami də bəyənirdi şeirlərimi.

Elə dünən Nizami də mənə zəng etmişdi. Kefi yuxarı idi. Dedi: - O illər...

Cavab verdim ki: - O illər var, amma Vəli Xramçaylı yoxdu.

Dostlarımın şeirlərinin "Ulduz"da işıq üzü görməsinə çalışırdım. Məsələn, Ramiz Qusarçaylı, Akif Səmədin, hətta Rüstəm Behrudinin də şeirlərinin çapına çalışmışam.

**- Vurğuladınız ki, Ramiz Rövşən də təmiz qala bilmədi. Niyə qala bilmədi, ona nə və ya kim mane oldu ki? Hansı gözləntiləri doğrultmadı?**

- Ramiz Rövşən şairdi. Amma adam dünən üsyan edirdi, fəxri ad istəmirdi. Amma sonra hər şeyə nail oldu *(gülür).* Parlament istəmirəm deyə-deyə namizədliyini irəli sürdü. Hətta "Müsavat" Partiyasına üzv oldu. Bütün şairlər öz taleyini yaşayır.

**- Vaqif Səmədoğlu da "Müsavat" Partiyasının üzvü olub, elə o partiyadan da deputat seçilib. Heç onun adını çəkmirsiniz. "Qazaxşina" güc gəlir?**

- Vaqif Səmədoğlunu Yusiflə müqayisə edə bilmərəm.

**- Niyə, rəhmətliyin sağlığında münasibətiniz yaxşı olmayıb?**

- Yox, aramızda elə dərin hadisələr yaşanmayıb. Vaqif Səmədoğlu böyük şairdir. Mən onun vəkili olmuşam. O vaxt Barat Vüsal da "Müsavat"da idi. Baratla mən Vaqifin vəkili olmuşuq. Onun necə deputat seçilməsini də bilirəm. Gəl bu barədə çox danışmayaq. Özü həyatda olsaydı, danışardıq.

**- Şair və yazarların bir-birinə kinikudurəti niyə kəsmir?**

- Doğrudur, əlacları olsa, biri-birlərini zəhərləyərlər. Anarla Əkrəm illərlə dost oldular. Ad almaq üçün İsmayıl Şıxlının üstünə hücuma keçdilər. Əkrəm onu etiraf edir.

**- İsmayıl Şıxlı onların hücumuna görəmi AYB sədrliyindən getdi, yoxsa başqa mətləblər vardı?**

- Mən onun şahidiyəm. İsmayıl Şıxlını bezdirdilər, o da şəxsiyyətinə hörmət edən adam idi. Dedi, alın, bu da sizin AYB. Biri o vaxt mənə replika atdı ki:- AYB -ni niyə buraxdınız? Cavabım belə oldu: - Biz kreslonu vermişik, ədəbiyyatı yox. Ədəbiyyatı yenə də biz yaradırıq. İndi Əkrəmlə Anarın bir-birinə qarşı yazdıqlarını oxuyanda "ət tökürəm". Onlara deməyə söz tapmıram.

**- Akif Səmədlə bağlı da deyirlər ki, onu dostları AYB-nin qurultayında pərt ediblər. Deyəsən, siz də həmin dostların sırasında olmusunuz?**

- Akif Səmədi heç kim pərt vəziyyətinə qoymayıb. Tam səmimi deyim ki, Akif qurultaydan sonra gəlib müsahibə verdi. Bir çoxu ona cavab yazdı, mən yazmadım. Onun sözündən belə anlaşılırdı ki, biz 37-ci ilin övladlarıyıq. Məsələni Akifə başqa cür izah etmişdilər. Akif istedadlı şair idi *(Siqaret yandırır).*

**- Sizi bəzən arağa meyilli kimi təqdim edirlər. Niyə belə oldu?**

- 30 yaşıma qədər nə içmişəm, nə də çəkmişəm. Amma 20 Yanvar hadisəsi ərəfəsində dözə bilmədim, o gündən başladım, bu günə qədər içirəm. 20 Yanvarda sağ qalmağıma peşman olmuşam. Bir güllə şalvarımı deşib keçmişdi. Bax, elə həmin gündən başladım.

**- İndi də elə bil 50-100 vurmusunuz?**

- Elə-belə.. 4 gün idi, dilimə araq dəymirdi. Araq süfrənin şahıdı.

**- Araqla bağlı şeiriniz də var...**

- Var, bəli.

*Şeiri səsləndirir:*

**Hər gün yandırardım dost çırağını**
**Çoxdandı almıram, səs sorağını**
**Açıram könlümün qəm varağını**
**Siz indi hardasız, araq dostlarım**
**Yetişin son dəfə vuraq, dostlarım.**

**- Doğrudanmı dostlarınız araq dostları çıxdılar?**

- Çox imiş araq dostlarım...

**- Sizə dərviş Vəli də deyirlər...**

- Ya qazi ol, ya şəhid, ya da dərviş...

Ya gərək Ramiz Rövşən kimi şair olaydım, medal alaydım, ya da dərviş olmalıydım. Mən də ikincini seçdim.

**- Millət vəkili, yazıçı Aqil Abbas sizi nəşriyyatın restoranına yığırdı...**

- Aqil Abbas mənim hər yubileyimi qeyd edib. Deyirlər indi bir az nasazdı.. Aqil müəllim şair və yazıçılara "əl tutan" adamdı. Aqil Abbas da istəyir Səməd Vurğun olsun.

**- Şair, bu cümlə başlıqdır ha *(gülürük).***

**- Qardaşoğlu, Aqil Abbas neynəsin?**

Döyülən də o, söyülən də o. Aqil Abbas unikaldı.

**- Şair, bayaqdan dinləyirəm, söhbəti fırladıb, ya Səməd Vurğuna, ya da başqa Qazaxdan olan şair və yazıçının üzərinə gətirirsiniz. Bəlkə "Qazaxşina" ayamasını düz yapışdırıblar?**

- Nə edim ki, yaxşı şeirlər Qazaxda doğulur. Deyirəm:

**Puşkini Bayronu məndən uzaqdadır, məndən uzaqda**
**Vidadi, Vaqif, Vurğun şeirinin**
**Sonuncu şairi mənəm Qazaxda.**

Qazaxda məndən başqa şair axtarmayın, tapmayacaqsınız.

**- Şair, iki ildən sonra 70-i haqlayırsınız. Niyə sizə də bir orden, medal, nə bilim, Əməkdar incəsənət xadimi adı verilməsin? Bəlkə özünüzü kimlərəsə göstərməlisiniz?**

- Məndə olan şanslar heç kimdə olmayıb. Onun yollarını da bilirəm. Mən o yolu tutmadım. Mənzil verirdilər, götürmədim. Çünki evim vardı. Allah rəhmət eləsin Məmməd Araza. Məmməd Arazın 60 illik yubileyində Heydər Əliyevlə görüşmək üçün növbəyə durmuşdular. Hətta Zəlimxan Yaqub o yubileydə çıxış elədi.

**- İndi müdriklik yaşındasınız. Sizə də heç olmasa, Əməkdar incəsənət xadimi adı verilsə, dünya dağılar?**

- Verirlər versinlər! Versələr də, verməsələr də, sağ olsunlar. Ad almaq üçün də siyasi gedişlər var. Onu etməsən, ad ala bilməyəcəksən. Əksər şair siyasi gediş elədi, ad da aldı, Parlamentdə mandat da. Kəramət də, Qəşəm də siyasət işlədirlər. Oğlu söyür, atası ev alır.

**- Məncə, Kəramətlə, Qəşəm Nəcəfzadəni qarışdırmayaq. Axı demokartik düşüncə, demokratik yanaşma atanın günahını balanın, balanın da günahını atanın ayağına yazmır, yazmamalıdır. Malı mala qatmayaq da...**

- Düşünürəm ki, belə getsə, Kəramət axırda ata qatili olacaq.

**- Belə anladım ki, Parlamentə gedən şair və yazıçılar təmiz qala bilməzlər...**

- Mümkün deyil. Nətəri qala bilərlər? Siyasət qurbanı yazıq şairlər...

**- Gənclərdən kimi izləyirsiniz, oxuyursunuz?**

- Aqşin, Qismət, Taleh Mansur, Ramil Əhməd istedadlıdırlar. Amma mən Rauf Sufini daha çox bəyənirəm. Ondan çox şey gözləyirəm.

**-Şair, qabağınıza keçəni, gözünüzə görünəni qamçılayırsınız..**

**-Güllələyin şairləri!**
**Sonda şeirlə söhbəti bağlı elan edirik:**
**Bu dünyanın namərdini,**
**Görüb tapammır mərdini**
**Öz icində öz dərdini,**
**Boldu bir Vəli, bir Vəli.**

**Söhbətləşdi: Ayyət Əhməd**

# Azərbaycanda Ərdoğana rəğbət rekord həddə çatıb

## "Türkiyə Prezidenti İkinci Qarabağ savaşında komandası ilə birlikdə birbaşa və açıq şəkildə bizə dəstək verdi"

**Azərbaycanda respondentlərin 90.4 faizi mayın 14-də Türkiyədə keçiriləcək seçkilərdə "Cümhur İttifaqı"nın prezidentliyə namizədi, hakim Ədalət və İnkişaf Partiyasının sədri, hazırkı dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın qalib gəlməsini arzulayır.**




Bu, Sosial Tədqiqatlar Mərkəzinin apardığı rəy sorğusu nəticəsində məlum olub.

Qurumun İdarə Heyətinin sədri, deputat Zahid Oruc bildirib ki, sorğuda iştirak edənlərdən seçkilərdəki dörd namizəddən hansını dəstəklədiyi və hansı namizədin qalib gələcəyini ehtimal etdiyi barədə rəylərini qeyd etməsi istənilib: "Onların 5.1 faizi Kamal Kılıçdaroğlunu, 0.8 faizi Məhərrəm İncəni, 0.1 faizi Sinan Oğanı qalib görmək istədiyini bildirib. İştirakçıların 3.5 faizi hansı namizədi dəstəkləməsi ilə bağlı rəyini bölüşməyib.

İştirakçılar arasında Kamal Kılıçdaroğlunu tanıyanların 89.5 faizi, Sinan Oğanı tanıyanların 89.8 faizi, Məhərrəm İncəni tanıdığını qeyd edənlərin 87.8 faizi prezident vəzifəsində yenidən Rəcəb Tayyib Ərdoğanı görmək istədiyini ifadə edib".

Sorğunu "Şərq"ə dəyərləndirən politoloq Samir Hümbətov vurğulayıb ki, əhalinin Türkiyədə 14 mayda keçiriləcək seçkilərdə Ərdoğanın qalib gəlməsini istəməsinin bir neçə səbəbi var: "Birincisi, Ərdoğan İkinci Qarabağ savaşında komandası ilə birlikdə birbaşa və açıq şəkildə bizə dəstək verdi. Digər tərəfdən, Ərdoğanın tutduğu strateji xətt, Azərbaycanın xarici siyasətinə uyğundur. Yəni Ərdoğan tutduğu strateji xətlə milli və dini baxımdan sintez olunmuş bir siyasət yürüdür. Bu da yaxın çevrə siyasəti ilə üst-üstə düşür".

Analitik əlavə edib ki, Türkiyə artıq regionun əsas güclərindən birinə çevrilib: "Həmçinin Ərdoğan hökuməti bir çox sahələrdə Azərbaycanla açıq əməkdaşlığa üstünlük verir. Bunlar hərbi-sənaye, iqtisadi, siyasi, mədəni və s. sahədə olan əməkdaşlıqlardır. Bu bir neçə aspekti dəyərləndirəndə Ərdoğana qarşı Azərbaycan cəmiyyətində niyə belə rəğbətin olduğunu görə bilərik. İkinci Qarabağ savaşından sonra isə bu rəğbət rekord həddə çatıb".

**Nihat Müzəffər**

# Türkiyə Ermənistanı cəzasız qoymayacaq

## Terrorçulara abidə qoyulması həyasızlığın ən pik səviyyəsidir



**"Türkiyənin Xarici İşlər Nazirliyinin Ermənistana yönəlik bəyanatı əslində çox əsaslı xəbərdarlıqdır".**

Bunu "Şərq"ə siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev Türkiyə XİN-in Ermənistana xəbərdarlıq etməsindən danışarkən deyib. O söyləyib ki, Türkiyə Ermənistana normal münasibət bəsləməyə çalışdıqca, düşmən ölkə bir o qədər bunun əleyhinə gedir: "Artıq o dərəcədə həyasızlaşıblar ki, saxta soyqırımı abidəsi ilə bərabər "Nemesis abidəsi"nin də açılmasını istəyirlər. Əslində bu "Nemesis" bir nömrəli faşist təşkilatıdır. Bunun da əsas məqsədi türkləri qırmaqdır. Ona və terroru törədənlərə abidə qoyulması artıq həyasızlığın ən pik səviyyəsidir. Münasibətlərin normallaşdığı vaxtda Ermənistanın atacağı bu addıma qarşı qardaş ölkənin mövqeyinin bir qədər də sərtləşəcəyi gözləniləndir. Açığı, bu, proseslərə çox mənfi təsir edəcək.

Onsuz da Türkiyə Azərbaycana görə Ermənistanla 30 il idi əlaqə saxlamırdı. Münasibətlər yenicə müəyyən qədər istiləşməyə başlamışdı. Amma ermənilər yenə də öz xəyanətlərindən əl çəkmədilər. Təbii ki, sözügedən addım cəzasız qalmayacaq. Türkiyə bu barədə fikirləşsə, yaxşı olar.

Artıq kifayət qədər sənədlər də var. Araşdırmalarımıza əsasən türklər və kürdlər soyqırımına məruz qalıblar. İndi ermənilər həyasızlıq edirlər, İstanbulda türk soyqırımı abidəsi yaradılmalıdır. Onların Sarıqamışda, Çanaqqalada türklərə qarşı xəyanətlərini göstərən sənədləri ortaya qoymaq və bunu muzeylərdə yox, artıq abidə şəklinə salmaq lazımdır.

Belə olduğu halda ermənilər hər şeyi başa düşərlər. Əks halda normal dildə anlamırlar. Məlum addım da Türkiyəyə qarşı növbəti təxribatdır. Əsas məqsəd qardaş ölkəni qızışdırıb, başqa bir münaqişəyə cəlb etməkdir. Nəticədə Ermənistan dünyaya bəyan etməyə çalışacaq ki, türklər soyqırımı həyata keçirib. Amma ermənilər çox da sevinməsinlər. Çünki ayağa qalxmaları öz başlarına bəla olur. Hazırda türkün dövrüdür. Artıq zaman türklərin xeyrinə, hayların ziyanına işləyir".

Qeyd edək ki, Türkiyə XİN Ermənistana xəbərdarlıq edib. Türkiyə Xarici İşlər Nazirliyinin bəyanatında yer alıb: "Biz İrəvanda 1920-ci illərin əvvəllərində Osmanlı siyasi və hərbi rəhbərlərinə, o zamankı Azərbaycan rəsmilərinə və hətta erməni əsilli bəzi Osmanlı vətəndaşlarına qarşı sui-qəsdləri törədənlərə həsr olunmuş "Nemesis abidəsi"nin açılmasını qətiyyətlə pisləyirik"

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

**Azərbaycan dövlətinin sosialyönümlü siyasətə üstünlük verməsi ölkə başçısının imzaladığı fərman və sərəncamlarda əksini tapır. Təsadüfi deyil ki, dövlət büdcəsindən ayırmalarda məhz sosialyönümlü layihələr əsas yer tutur, uşaqların sağlamlığının təminatı, tədris, təlim-tərbiyə məsələlərinin inkişafını nəzərdə tutan layihələrin icrası başlıca məqsəd daşıyır. Bu mənada himayədar ailə modelinin daha da təkmilləşməsi, uşaqların ailələrdə böyüməsinin təşviqi üçün atılan addımları da xüsusi vurğulamalıyıq.**

Bu günlərdə "Sosial müavinətlər haqqında" qanuna təklif edilən düzəlişlər də dövlətimizin uşaq və gənclərin fiziki sağlamlığına necə böyük önəm verdiyini göstərir. Qeyd edək ki, təklif edilən düzəlişlər Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsində müzakirə olunub. Dəyişikliklərə əsasən, himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə aylıq müavinətlər ödəniləcək. Bu müavinət himayədar valideynlərlə dövlət qurumu arasında uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın himayədar ailəyə verilməsinə dair müqavilə bağlanıldıqdan sonra ödəniləcək. Müavinətin məbləği dəyişikliklərin qəbulundan sonra müəyyənləşəcək. Digər dəyişikliyə əsasən, həmin uşaqlara mövsümi geyim alınması üçün birdəfəlik müavinətlər də ödəniləcək. Bu zaman da oxşar müqavilənin bağlanması əsas şərtdir. Bu müavinət müqavilə bağlanıldıqdan sonra ildə 4 dəfə (mart, iyun, sentyabr və dekabr aylarında) ödənilməklə, həmin müqavilənin qüvvədə olduğu müddətə təyin edilir. Dəyişikliklərin məqsədi uşaqları himayəyə götürən ailələrin sosial vəziyyətini daha da yaxşılaşdırmaq və kimsəsiz uşaqların ailələrdə böyüməsini stimullaşdırmaqdır.

Xatırladaq ki, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara müavinətin miqdarı da hər il artırılır. 2020-ci ildən etibarən bu məbləğ təqaüd məbləğində əlavə olunmaqla artırılaraq 280 manata çatdırılıb. Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edənlərə də ödənilən Prezidentin aylıq təqaüdünün artırılması nəzərdə tutulur. Ümumilikdə son üç ildə aparılan sosial islahatlar nəticəsində əlilliyə görə müavinətlər I dərəcə üzrə 2,7 dəfə, II dərəcə üzrə 3 dəfə, III dərəcə üzrə 2,3 dəfə artırılıb. Qeyd edək ki, İqtisadi Şuranın sonuncu iclasında 2023-cü ilin dövlət büdcəsinə yenidən baxılması məsələsi müzakirə olunub. Bununla bağlı Prezident İlham Əliyev hökumətə tapşırıqlar verib. Bu ilin birinci rübü üzrə dövlət büdcəsi gəlirlərinin proqnozdan artıq icra olunması 2023-cü ilin dövlət büdcəsinə yendən baxılmasına zəmin yaradıb. 2023-cü ildə dövlət büdcəsindən əməkhaqqı və pensiya ödənişləri daxil olmaqla 15.2 milyard manat sosial sferaya yönəldiləcək. Bununla bağlı millət vəkili Vüqar Bayramov açıqlama verərək bildirib ki, bu, ümumi büdcə xərclərinin 45.6

orada da maddi cəhətdən təmin olunmuş halda yaşayırlar. Məsələ təkcə maddiyyatda deyil. Hər bir uşağın ailəyə, ana, ata məhəbbətinə, doğmalarının qayğısına ehtiyacı var. Təkcə uşaqların deyil, elə hamının. Dövlət uşaq müəssisələrində böyüyənlər arasından istedadlı, savadlı, Vətənə layiqli övladlar, gənclər çıxır. Amma dövlətin ali məqsədi mümkün olduğu qədər hər bir uşağın ailəyə sahib olmasıdır. Çünki uşaqlar məhz ailə ortamında hərtərəfli inkişaf etmək imkanıına malikdir. Biz istisnaları kənara qoyaq. Bəli, elə ailələr var, uşağa heç nə vermir. Uşağın nə maddi təminatı olur, nə də mənəvi. Cəmiyyətə baxsaq, hər cür



# Məqsəd aydındır

## Övladlığaverilmə, himayədar ailə, qəyyumluq qaydalarının yenilənməsi ailə institutunun möhkəmlənməsinə xidmət edəcək

faizi deməkdir. Büdcəyə ediləcək dəyişikliklərdən sonra büdcənin gəlir və xərclərində artımların olacağı gözlənilir. Şübhə yoxdur ki, milli prioritetlər nəzərə alınacaq, sosial təminatın gücləndirilməsi əsas istiqamətlər olacaq.

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova "Şərq"ə açıqlamasında bildirib ki, uşağın ailə ortamında böyüməsi onun hərtərəfli inkişafını təmin edəcək əsas amildir:**

- Övladlığaverilmə, himayədar ailə, qəyyumluq qaydalarının yenilənməsi, daha da təkmilləşdirilməsi ailə institutunun möhkəmlənməsinə xidmət edir. Məqsəd də aydındır. Uşaqların ailə ortamında böyüməsini, inkişafını təmin etmək. Fikir verirsinizsə, qanunlara təklif edilən dəyişikliklər bu məsələdə şəxslərin üzərinə böyük məsuliyyət qoymaqla yanaşı, onların himayədar və ya qəyyum olmalarını da asanlaşdırır. Bu baxımdan ki, vətəndaş dövlətin dəstəyini hiss edir. Görür ki, tək deyil və dövlət ona hərtərəfli dəstək verməyə hazırdır. Hamımız bilirik ki, dövlət müəssisələri var və uşaqlar ailə nümunəsi ilə qarşılaşa bilərik. Lakin biz istisnaları deyil, ümumi vəziyyəti əsas götürməliyik. Ümumilkdə isə sosioloqlar, psixoloqlar, pedaqoqlar uşaqların məhz ailə daxilində normal inkişafının mümkün olduğu fikrindədir. Və bu, doğru qərardır. Ona görə də dövlət himayədar ailə, qəyyumluq məsələləirndə vətəndaşların təşviq edilməsi prinsipini prioritet hesab edir. Və bu məqsədlə də müəyyən addımlar atılır. Himayədar ailələrə ödəniləcək müavinətlərin miqdarının artırılması da bu addımlardan biridir.

M.Zeynalova qeyd etdi ki, müavinətlərin xərclənməsində şəffaflıq təmin olunmalı, aidiyyəti üzrə xərclənməsinə ciddi nəzarət mexanizmi tətbiq edilməlidir. Bu məsələylə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məşğul olmalı, nazirlik tərəfindən xüsusi şöbəyə, yaxud hər rayon üzrə icra hakimiyyətləri nəzdindəki şöbələrə bu iş tapşırılmalıdır. Ayrılan vəsaitin həqiqətənmi himayəyə götürülmüş uşağa xərcləndiyi yoxlanmalıdır. Ərazi tibbi bölmələri bu işə cəlb edilməli, sahə həkimləri himayədar ailəyə verilmiş uşağın səhhəti ilə mütəmadi maraqlanmalı, vaxtlı-vaxtında onlar tibbi müayinələrə cəlb edilməlidir. Eləcə də təhsil müəssisələri, əgər uşağın müəyyən əlilliyi varsa, ola bilsin ki, o, evdə təhsilə cəlb edilməli, yaxud da xüsusi tədris ocaqlarında təhsil alması təmin edilməlidir. Ümumiyyətlə, uşağın himayədar ailədə yaşamı necədir, onunla necə rəftar edilir, ailədəki başqa uşaqlarla münasibətlər necə qurulub, ayrı-seçkilik edilmir ki və sair bu kimi məsələlər ciddi nəzarət altında saxlanmalıdır. Himayədar ailənin maddi yükünü dövlət daha çox öz üzərinə götürməklə daha çox uşağın ailədə böyüməsini və beləliklə də uşaqların hərtərəfli inkişafını təmin etmiş olar.

**Sosioloq Elçin Bayramlı isə bu fikirdədir ki, ödəniləcək müavinətin miqdarı minimum istehlak səbətindən aşağı olmamalıdır:**

- Hesab edirəm ki, müavinətlərin miqdarı yaşayış minimumundan aşağı olmamalı, hətta yüksək olmalıdır. Ölkədə yaşayış minimumu 246 manat təyin edilib. Hərçənd, bu, istehlak səbətini təşkil edən məhsulların hazırda müşahidə olunan qiymətləriylə tərs-mütənasibdir. Bütün hallarda himayədar ailələrə ayrılacaq müavinətlərin miqdarı, heç olmasa, bu civarda təyin edilməlidir. Himayədar ailələrin də tipi müəyyənləşməlidir. Bilinməlidir, himayəyə götürmə məcburidir, yoxsa könüllü. Məcburi deyiləndə belə anlaşılmasın ki, kimisə buna məcbur edirlər, uşaq himayəyə götürsün. Bəzən elə hallar olur ki, valideynlərini itirmiş uşaq yaxın qohumlar tərəfindən himayəyə alınır. Baba, nənə, digər yaxın qohumlar uşağa sahib çıxırlar, başqa ailəyə verilməsinə razı olmurlar. Bunu vəziyyət tələb edir. Bir də var, könüllü şəkildə kimlərsə uşaq övladlığa götürmək üçün müraciət edir. Hər iki halda ailələrin maddi durumu dəqiqləşməli və müavinətlər buna görə təyin edilməlidir. Hətta ola bilər, himayədar ailənin uşağı himayəyə götürdüyü zaman maddi vəziyyəti yaxşı olsun, lakin sonra pisləşsin. Dövlət orqanları belə fərqlilikləri də nəzərə almalı və mövcud vəziyyətə uyğun davranmalıdırlar. Himayədar ailəyə ayrılacaq müavinət uşağın ehtiyaclarını normal şəkildə qarşılamağa yetərli olmalıdır.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Paşinyan 3 stulda oturur!

## "Həyatı da, hakimiyyəti də təhlükədədir..."

**"Yaxın zamanlarda Ermənistanın danışıqlar masasına qayıtması gözlənilir". Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonna ilə birgə keçirdiyi mətbuat konfransında deyib.**

Onun sözlərinə görə, Ermənistanın qeyri-konstruktiv mövqeyinə görə ötən ilin noyabrından bəri fiziki təmaslar olmayıb: "Ancaq beynəlxalq təşkilatların təkidi nəticəsində yaxın zamanlarda Ermənistanın danışıqlar masasına qayıtması gözlənilir. Nəqliyyat-kommunikasiya xətlərinin açılması və delimitasiya prosesi olduqca vacib məsələdir".

**Rəsmi İrəvanın danışıqlar masasına qayıtmasının təkcə Nikol Paşinyandan asılı olmadığını deyən siyasi şərhçi Kənan Novruzov "Şərq"ə vurğulayıb ki, bu həm də Ermənistan üzərində ağalıq etmək istəyən Qərb və Rusiya mübarizəsinin nəticəsindən asılıdır:**

"Əslində əvvəllər Paşinyanın nala-mıxa vurmağı ABŞ və Kreml rəqabəti kontekstindən qiymətləndirilirdi. İndi isə artıq o, üç stulda oturmağa məcburdur. Bunlar ABŞ, Rusiya və Aİ-dir. Bunlardan hər üçünün regionla bağlı maraqları var və onlar başa düşürlər ki, bölgədə mövcud olmaq üçün yalnız Azərbaycanla Ermənistan arasında bağlanacaq sülh müqaviləsi kartından istifadə edə bilərlər. Rusiyaya nisbətən Qərb müqavilənin bağlanmasına daha maraqlıdır. Çünki Qərb sakitliyin olması ilə iqtisadi maraqlarının təmin edilməsinin tərəfdarıdır. Rusiya isə əksinə, gərginlik olmasa, regiondakı mövcudluğunu qoruya bilməyəcəyini düşünür. Lakin Vaşinqton və Brüssel də heç "süddən çıxmış ağ qaşıq" deyil. Paşinyanın hansı mövqe sərgiləyəcəyi də bu rəqabətin nəticəsindən asılıdır. Məncə, Paşinyan sülh müqaviləsində maraqlıdır. Əks halda belə cəsarətli addımlar atmazdı. Hər kəsə məlumdur ki, o, Qərbin layihəsidir. Bu mənada cəsarətli bəyanatlar verməyi də təəccüblü deyil".

*"Baş nazir sülh müqaviləsində maraqlıdır, əks halda belə cəsarətli addımlar atmazdı"*

**Analitikin sözlərinə görə, Rusiyanın regiondakı təsir gücünün zəifləməsi fonunda Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi istiqamətində müəyyən addımlar atıla bilər:** "Paşinyan nə qədər vaxt uzatmaq istəsə də, artıq vəziyyət gərginləşir. Bıçaq sümüyə dirənib. Hətta Ermənistan mətbuatı yazır ki, o, parlamentə mühafizəçilərlə gedir və sui-qəsd ehtimalından narahatdır. Bu da təbiidir. Üç stulda oturmağa davam etdikcə onun həyatı da, hakimiyyəti də təhlükədə olacaq. Həm Rusiya, həm də Qərb Paşinyan üzərində təzyiq qurmaq üçün istənilən üsuldan istifadə etməyə hazırdır".

K.Novruzov əlavə edib ki, yaxın zamanda Rusiya və ABŞ-də üçtərəfli danışıqların olması gözləniləndir: "Hər halda danışığın olmasının özü bir nəticədir. Bu il ciddi nəticələri müşahidə edə bilərik. Hətta Türkiyədəki seçkilərə qədər həm hərbi, həm də diplomatik sahədə ciddi hadisələrin şahidi olacağımız mümkündür".

**Nihat Müzəffər**

# Elə gənc müəllimlər var sinfi idarə edə bilmir

## Sertifikasiya olduqca lazımlı və yerində bir prosedurdur

**Təhsilin hər üç pilləsində ciddi problem var. Nazirlik bu sahələrin idarə edilməsində öz funksiyasını tam yerinə yetirmir.**

Bunu Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov komitənin iclasında deyib. Proseslərin çox ləng getdiyini vurğulayan deputat qeyd edib ki, fərmanın üzərindən xeyli vaxt keçməsinə baxmayaraq, hesab edirəm ki, ciddi işlər görülməyib: "Sertifikatlaşdırma məsələsinə gəlincə, ali təhsil sahəsində ciddi problem var. Tələbə diplom alır, amma bir müddət sonra gəlib deyirik ki, biz sizin diploma güvənmirik və biliyinizi yoxlayırıq. Bizim universitetlərimiz normal mütəxəssis yetişdirə bilmir".



*Kamran Əsədov: "Müəllim hazırlayan ali təhsil müəssisələri sadəcə nəzəriyyə keçir, praktika isə yox dərəcədədir"*

**Təhsil eksperti Kamran Əsədov isə "Şərq"ə açıqlamasında sertifikasiyanın olduqca lazımlı və yerində bir prosedur olduğunu deyib. Onun sözlərinə görə, dünyanın bir çox inkişaf etmiş ölkələrində təkcə müəllimlərin yox, bir çox peşə sahiblərinin peşəkarlıq səviyyəsinin ölçülməsi məqsədilə onların sertifikasiyası keçirilir.**

Azərbaycan müstəqilliyini əldə edəndən sonra keçid dövrü problemini yaşadı. Bu, təhsil sahəsinə də təsirsiz qalmadı. İqtisadi böhran və işsizlik həmin dövrdə çoxlarını yeganə çıxış yolu kimi təhsilə gətirdi. Beləliklə, əsl peşəkarlarla yanaşı, çoxsaylı təsadüfi insanlar da təhsilə üz tutdu: "2014-2019 -cu illərdə mərhələ-mərhələ bütün müəllimlər diaqnostik qiymətləndirmədən keçirilib. Məqsəd Azərbaycanın pedaqoji heyətində əsl bilikli, peşəkar müəllimlərlə digərlərini saf-çürük etmək idi. Diaqnostik qiymətləndirmə birmənalı qarşılanmadı. Az bal toplayanlar bu proseduranın mükəmməl olmamasından şikayətləndilər. Praktika göstərdi ki, heç də bütün yüksək bal toplayanlar real fəaliyyətdə, istehsalat prosesində peşəkar olmur, bəzi hallarda sinfi-şagirdləri idarə etmək səriştəsindən uzaqda qalırlar.

Bir sözlə, diaqnostik qiymətləndirmə pedaqoji heyətin nəzəri, bəzi hallarda əzbərçi biliklərini müəyyən edə bilsə də, praktiki səriştəsini, müəllimin dünyagörüşü, etik davranış səviyyəsini, mənəvi dəyərlərə, azərbaycançılıq ideologiyasına sədaqətini yoxlaya bilmədi. Sertifikasiya isə diaqnostik qiymətləndirmə formatında deyil. Diaqnostik qiymətləndirmədə müəllimin ixtisas və metodiki bilikləri nəzərə alınır, amma onun peşəkarlığı ilə bağlı bütün cəhətlər nəzərə alınmır. Çünki diaqnostik qiymətləndirmənin özünün xidmət etdiyi konkret istiqaməti var. Amma attestasiya daha geniş formatdadır. Attestasiya zamanı ola bilər ki, müəllim yalnız test imtahanı verməsin, o həm də müsahibə mərhələsindən keçsin. Yaxud müəyyən müəllimlərdən bilik və bacarıqlardan başqa qabiliyyət imtahanı verməsi də tələb olunsun".

**Deputatın "universitetlərimiz normal mütəxəssis yetişdirə bilmir" iradına gəldikdə isə K.Əsədov deyib ki, müəllim hazırlayan ali təhsil müəssisələri sadəcə nəzəriyyə keçir, praktika isə yox dərəcədədir:** "Bu gün universitetlərimizdə bəzi fənlər həm müəllimlər, həm də tələbələr tərəfindən qulaqardına vurulduğu üçün gənc müəllim sinfi idarə edə bilmir. Təkmilləşdirmə müəssisələrinin də birincilik verdiyi kurikulum üzrə tədris bacarıqlarının inkişafı olduğu üçün müasir şagirdlə necə dil tapmaq, ona necə yanaşmaqla bağlı bacarıqlar aşılanmır. Ona görə də müəllim imici zəifləyir, pis müəllim obrazı formalaşır və müəllim-məktəb mövzusu gündəmdən düşmür".

**Şəymən Bayramova**

# Ən yaxşı variant qızıl alıb saxlamaqdır



## Banklara qoyulan pul rentabelli deyil

**Əhalinin banklardakı əmanətlərinin həcmində uzun müddətdən sonra azalma müşahidə olunub. Ekspertlər bu amili depozitlərə tətbiq edilən vergi qərarı ilə əsaslandırırlar. Bəzi depozit sahiblərində belə bir yanaşma formalaşıb ki, vergi depozit məbləğinə tətbiq olunur. Ekspertlər hesab edir ki, banklar tərəfindən məlumatlandırma düzgün qurulsaydı, depozit məbləğində azalmalar müşahidə olunmazdı.**

Qeyd edək ki, insanlar həmişə əllərindəki pulu yatırıma yönəldərək daha çox gəlir əldə etməkdə maraqlıdırlar. Lakin Azərbaycanda "pul pul gətirər" anlayışı bir o qədər də real deyil. Bu səbəbdən pulu olan şəxslər daima "nəyə yatırsam daha çox gəlir əldə edə bilərəm?" kimi suallar ətrafında var-gəl edir. Mütəxəssislər isə tövsiyə edir ki, vətəndaşlar yığdıqları vəsaitin "yatmaması" üçün maliyyə bazarlarındakı trendləri izləməli, yeni investisiya imkanlarını araşdırmalı, özü üçün risk və gəlirliliyin nə olduğunu aydınlaşdırmalı, özünün necə investor olduğunu müəyyənləşdirməlidir. Hər kəs özünün hansı risk kateqoriyasına daxil olduğunu təyin etməli, risk sevən, yoxsa riskdən qaçan investor olduğunu bilməlidir.

**İqtisadçı-ekspert Rauf Qarayev isə "Şərq"ə açıqlamasınsda deyib ki, Azərbaycanda "pul pul gətirməlidir" prinsipi işləmir. Onun fikrincə, hazırda ölkəmizdə daşınmaz əmlak və banka qoyulan pul rentabelli deyil:** "Əmlak satılan zaman və icarəyə verilən zaman vergi verməlisən və gəlir burada cüzi faizidir. Bundan əlavə, mənzil plana düşəndə bazar

### *Azərbaycanda "pul pul gətirməlidir" prinsipi işləmir*

qiymətindən aşağı qiymət təklif olunur və vətəndaşlar istədikləri pulu ala bilmir. Banklara qoyulan depozitlərin etibarlılığı təmin edilsə, bu variant daha gəlirlidir. Bu zaman pullar həm inflyasiya baxımından sığortalanmış olur, həm də üzərinə əlavə gəlir gətirir.

Lakin son qeydlər onu göstərir ki, banklara ümid artsa da, bağlanan banklardan qoyulan vəsaiti almaq üçün məhkəmələrdə illərini itirməlisən. Vaxt itkisindən sonra qoyduğun vəsaitin tam həcmində geri qaytarılmasına təminat yoxdur. Müəyyən hallarda isə depozitə qoyulan pul ümumilikdə itirilir. Bu baxımdan ümid qalır əlində olan vəsaiti xarici ölkə banklarına qoymaq və ya qızıl almaq. Qızılı heç olmasa, son anda lom kimi satmaq olur. Amma bu da passiv yatırım hesab olunur. Bu, vəsaiti inflyasiyadan və digər bazar sarsıntılarından qorumağa imkan verəcək. Lakin heç bir gəlir gətirməyərək əldə olunmuş dəyərli əşyaların timsalında passiv kimi qalacaq. Xaricdə isə banklara etibar var. Bu baxımdan vətəndaş bəzi hallarda oranı seçir. Beləliklə ölkə bankları depozitə vəsait cəlb edə bilmir. Bu isə yaxşı hal deyil.

Lakin ölkədən çıxan valyuta ehtiyatları dövlət orqanları tərəfindən qeydə alındığından hər adam xarici banklara pul yatıra bilmir. Rentabellik baxımından ən yaxşı variant qızıl alıb saxlamaqdır".

*R.Qarayevin sözlərinə görə, ölkə daxilində edilən yatırımların sərfəli olması üçün qanunvericilikdə müəyyən sərtləşdirmə olmalıdır.*

Ekspert həmçinin qeyd edib ki, elmə yönələn vəsait də heç vaxt itmir: "Məsləhət görərdim, insanlar özünün şəxsi inkişafına xeyli vəsait xərcləsinlər, texnoloji biliklərə sahiblənsinlər. Daha çox yığımı olan şəxslər texnoloji mərkəzlər açaraq xaricdən mütəxsis cəlb etməklə kibernetika sahəsində kadrların hazırlanmasına nail ola bilər. Bu həm onun gəlirlərini artırar, həm də ölkədə İKT üzrə kadr çatışmazlığına müsbət töhfə olar".

**İqtisadçı-ekspert Cəfər İbrahimli isə deyib ki, biz insanların qısamüddətli vəsaitlərini həm daxili, həm xarici bazarda səhmlərə, dövlət və özəl sektor istiqrazlarına investisiya etməsində maraqlıyıq:** "Bu gün faiz gəliri əldə etmək istəyənlər üçün faiz baxımından istiqrazlar daha avantajlıdır. Çünki Azərbaycanda əmanətlərlə müqayisədə istiqrazlar vergidən azaddır (xüsusilə fiziki şəxslər üçün). Həm də özəl sektor istiqrazların faizi özəl sektor əmanətlərinin faizindən daha yüksəkdir. Digər uzunmüddətli və likvid olmayan alət kimi daşınmaz əmlak ön plandadır. Buna insanların marağı da çoxdur. Daşınmaz əmlaka daha uzunmüddətli investisiya edilir. Yəni uzunmüddətli yatırım etmək istəyənlər bundan istifadə edə bilərlər".

Ekspertin sözlərinə görə, qızıl hər zaman güvənli maliyyə aləti hesab olunur: "Dünyada proseslər mənfi məcrada hərəkət edəndə və qlobal risklər artanda qızılın qiymətinin artdığını müşahidə edirik. Bu istiqamətdə qızıl daha uzunmüddətli və daha güvənli alət olduğu üçün investorların bura yönəlməsində maraqlı olduqlarını düşünürük".

**Şəymən**

# Belə də qiymət olmaz

## Şadlıq sarayları insanları "soyur"



**Bahalaşma şadlıq sarayları və restoranlardan da yan keçməyib. Sözügedən xidmət sahələrində menyu qiymətlərinin bahalaşması ilə bağlı sosial şəbəkələrdə ciddi narazılıq var. Restoran sahibləri də bu il menyuların qiymətində təxminən 8-15 faiz arasında bahalaşma olduğunu deyir.**

Vətəndaşlar isə şadlıq saraylarında menyuların qiymətində 20-30 faiz artım olduğunu iddia edirlər. Belə ki, əvvəllər 130-140 manata təklif olunan bahalı menyuların qiyməti hazırda 170-190 manat arasında dəyişir. Bir neçə ay əvvəl 50 manata təklif olunan menyunun qiyməti isə 60 manata qədər artıb.

**İqtisadçı-ekspert Eyyub Kərimlinin "Şərq"ə açıqlamasına görə, ötən ilin böyük faizli inflyasiyasından sonra nəinki şadlıq evi və restoran, bütün xidmət sahələrində qiymətlər artıb.** Onun fikrincə, ərzaq məhsullarının qiymətində müşahidə edilən 40 faizli artım ictimai sektordan təsirsiz ötüşməyib. Yəni ki, şadlıq saraylarında qiymətlərin artması ərzaq məhsullarının bahalaşması ilə bağlıdır: "Mövsümlə əlaqədar kənd təsərrüfatı və ət məhsullarının qiymətində hələ də bahalaşma müşahidə olunur. Bu isə o deməkdir ki, ictimai sektorda da bahalaşma davam edəcək. Şadlıq sarayının sahibləri kobud şəkildə istehlakçıların hüquqlarını pozurlar. Şadlıq sarayları insanları öz büdcələrinə uyğun menyu seçməyə imkan vermirlər. Toy sahibinə standart menyu təqdim edir, masaya oxşar salat və isti yeməkləri düzməklə qiyməti şişirdirlər. Nəticədə isə toy edən vətəndaş qənaət edə bilmir və israfa yol verilir.

### *İqtisadiyyat Nazirliyi bu məsələ ilə bağlı şadlıq saraylarına nəzarəti artırmalıdır*

İqtisadiyyat Nazirliyi bu məsələ ilə bağlı şadlıq saraylarına nəzarəti artırmalıdır. Əks halda şadlıq sarayları insanları dolayı yolla soymağa davam edəcək. Əgər toy edən şəxslər öz büdcəsinə uyğun menyu tərtib edə bilsə, ciddi xərcə düşməz. Standart menyu o deməkdir ki, orada qeyd olunan bütün ərzaqlar süfrəyə qoyulacaq və toy sahibləri də həmin qidanı istəməsə də, ümumi ödəniş etmək məcburiyyətində olacaq. Onu da deyim ki, yay aylarında kənd təsərrüfatı məhsullarının qiyməti ucuzlaşsa da, restoranlar yenə də indiki qiymətləri təklif edəcək ki, bu artıq süni qiymət artımı deməkdir".

**Şəymən**

# Turizm axınına əngəllər var

## Nəinki Bakıda, hətta bölgələrdə də turizm xidmətlərinin qiymətləri yüksək olaraq qalmaqdadır



**Regionlarımız turizmdə hələ də Bakı ilə rəqabət apara bilmirlər. Dövlət Statistika Komitəsinin məlumatına görə, xaricilərin Azərbaycan hotellərində gecələmələrinin sayı 309 minə çatıb. Bunun 80 faizi Bakının payına düşür. Yəni Azərbaycanda gecələyən hər 100 xaricinin cəmi 20-si rayonlara üstünlük verib. Bu isə ondan xəbər verir ki, hələ də regionlar ilə müqayisədə Bakı xaricilər üçün daha cəlbedici olaraq qalmaqdadır.**

Millət vəkili Vüqar Bayramov bildirib ki, turizm neftdən sonra Azərbaycana ən çox valyuta gətirən sektordur. Deputatın sözlərinə görə, pandemiyadan öncə illik turizm gəlirləri 2.7 milyard dollara yaxın idi: "Bu sektor həmçinin məşğulluğa da xüsusi töhfə verir. Bu baxımdan turizm infrastrukturunun daha da inkişaf etdirilməsi və qiymətlərin optimallaşdırılması Azərbaycana və eləcə də regionlara daha çox turistin gəlməsinə imkan yarada bilər. Monitorinqlər göstərir ki, nəinki Bakıda, hətta bölgələrdə də turizm xidmətlərinin qiymətləri yüksək olaraq qalmaqdadır. Bu da həm daxili, həm də gəlmə turizmin inkişafına təsirsiz ötüşmür. 2023-ci ilin ilk rübündə ölkəmizə gələn turistlərin sayında artım müşahidə olunsa da, daha qısa zamanda pre-pandemiya göstəricilərinə çatmaq hədəflənməlidir. Eyni zamanda regionlarda çoxulduzlu hotellərlə bərabər, 1 və 2-ulduzlu hotellərin tikilməsi oludqca vacibdir. Belə hotellərin qiyməti daha aşağı olur və daha çox turistlər cəlb edir. Təəssüf ki, bu gün ölkəmizdə sahibkarlar daha çox 4-5-ulduzlu, bahalı hotellərin tikintisinə maraq göstərirlər. Az ulduzlu hotellərin inşaatının sürətləndirilməsi üçün bu istiqamətə daha çox aşağı faizli kreditlərin ayrılması və güzəştlərin tətbiqini aktuallaşdırır. Bu, sahibkarların stimullaşdırılması baxımından vacibdir".

**İsmayıl**



## Bakcell stendinə azarkeş axını!

**Bakıda Bakcell şirkətinin dəstəyi ilə Formula 1 Azərbaycan Qran Prisi başlayıb.**

"Formula 1" və "Formula 2" üzrə sərbəst yürüşlərin və sıralama turlarının keçirildiyi ilk yarış günü idman həvəskarları Dənizkənarı Bulvar ərazisində qurulmuş Bakcell zonasında maraqlı vaxt keçiriblər.

Azneft dairəsində yerləşən Bakcell tribunası və tribunanın ətrafında yerləşən Bakcell əyləncə zonası qonaqların böyük marağına səbəb olub, bu nüfuzlu idman yarışının ən populyar və ziyarət olunan guşəsinə çevrilib.

Azarkeşlər "Bakcell"in ultra-sürətli şəbəkəsini sınaqdan keçirib, eyni zamanda oyun zonasında təşkil olunmuş yarışlarda iştirak edərək şirkətdən hədiyyələr qazanıblar.

*Qeyd edək ki, "Formula-1" üzrə Azərbaycan Qran Prisi aprel ayının 30-na kimi davam edəcək. Texnologiya ilə əyləncəni bir araya gətirən Bakcell stendi bu günlər ərzində yarış həvəskarlarına xidmət göstərəcək.*

## "Nar"dan bölgələr üçün sərfəli tarif: "Yerlim+"




**"Nar" bölgələrdə daha rahat və sərfəli ünsiyyət üçün yeni "Yerlim+" tarifini təqdim edib.**

İndi cəmi 4 AZN ödəməklə abunəçilər100 ölkədaxili danışıq dəqiqəsi, 300 MB internet və WhatsApp-da pulsuz yazışmaəldə edəcək.Tarifi aktivləşdirmək üçün "Nar"ın bölgələrdəolan satış və xidmət mərkəzlərinə yaxınlaşaraq yeni nömrə almaq lazımdır.

Yerlim+ tarifinin təqdim etdiyi danışıq dəqiqələrini olduğunuz bölgədən ölkədaxilibütün istiqamətlərdə istifadə edə bilərsiniz. Yerlim+ tarifi ilə bağlı daha ətraflı məlumatı buradanəldə etmək mümkündür.

"Nar" müştəriyönümlülük siyasətinə sadiq qalaraq, abunəçilərinin rahat ünsiyyəti üçün müxtəlif ehtiyaclara uyğun fərqlitariflər təqdim edir.

**Elan**

Qasımov Sərdar Tofiq oğlunun adına verilmiş Bakı şəhəri, Bilgəh bağlar massivində yerləşən № 1238 "Q" bağın 148 saylı orderi itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MU-GA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 1046




## Qalmaqallı xorvatiyalı model Bakını gəzib, qutab yedi

**Xəbər verdiyimiz kimi, ötən gün Xorvatiyanın qalmaqallı gözəli İvana Knoll "Formula 1" Azərbaycan Qran Prisində iştirak etmək üçün Azərbaycana gəlib.**

Podium ulduzu paytaxtımızın incisi "İçərişəhəri" gəzib.

İvana həmçinin, "Qız qalası"na qalxaraq oradan şəhərə açılan möhtəşəm mənzərəni lentə alıb.

Bundan başqa Knoll mətbəximizin ləzzətli təamlarından biri olan qutabın dadına baxıb. Model ilk dəfədir qutabın dadına baxdığını bildirib. Bütün bunları isə İ.Knoll 3,4 milyonluq "Instagram" hesabında izləyiciləri ilə bölüşüb.

## Lavanda başağrısının dərmanıdır



**Lavanda bitkisi baş ağrısı və yuxusuzluğun dərmanıdır.**

"Medicina" xəbər verir ki, rusiyalı osteopat Vladimir Jivotov lavanda yağının faydaları barədə bunları açıqlayıb:

"Yağ sakitləşdirici təsirə malikdir, dəridə iltihabı azaldır, əzələ spazmları, boyun və baş ağrılarını aradan qaldırır.

Baş ağrısı varsa, alın, gicgahlara sürtmək yaxşıdır, yuxu probleminiz varsa, bir neçə damcı yastığa damcıladın, fiziki güclən sonra əzələ ağrısını azaltmaq üçünsə vannaya əlavə etmək olar".

Eləcə də bu yağdan aroma lampalarında, hava nəmləndiricilərində, müalicəvi vannalarda istifadə etmək olar, əsas odur ki, yağ təbii, keyfiyyətli olsun. Ekspertin sözlərinə görə, əsl lavanda yağı ucuz olmamalıdır. Hər satılan yağa aldanmaq olmaz.

## Afaq Bəşirqızı 11 ildir ət yemir



**Xalq artisti Afaq Bəşirqızı açıqlaması ilə diqqət çəkib.**

Aktrisa aparıcı Elgiz Əkbərin yutub layihəsinin qonağı olub.

Çəkiliş zamanı Elgiz Bəşirqızına yemək təklif edib. Aktrisa isə 11 ildir ət yemədiyini açıqlayıb:

"2012-ci ildən bu yana ət yemirəm".

*Qeyd edək ki, aktrisa bir müddət əvvəl xərçəngdən əziyyət çəkdiyini açıqlamışdı.*



# Tabutun içində "gülən ölü"

## Dəfnindən sonra qadın daha 40 il yaşadı

**ABŞ-nin Cənubi Karolina ştatında anadan olan Essie Dunbar möcüzəli həyat hekayəsinə malik qadındır. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, 1858-ci il təvəllüdlü Essie Afrika Metodist Yepiskopluq Kilsəsinin fəal üzvü olub. Bir fermerlə ailə quran Essienin 7 övladı dünyaya gəlib. Qadın özü də sahibkarlıq fəaliyyəti ilə məşğul olub. O zamanlar ABŞ-də irqçilik və cinsi ayrı-seçkiliyin yayqın dövrləri olsa da, Essie bu əngəlləri aşa bilib və uğurlu karyera qurub**

. Essie həm də epilepsiya xəstəliyindən əziyyət çəkib. Buna rəğmən çalışqanlığı azalmayıb, çoxlarına örnək olacaq fəaliyyətlərə imza ata bilib. 30 yaşında olarkən Essie növbəti epilepsiya krizi keçirib. Çağırışa gələn həkim qadının nəbzinin vurmadığını, nəfəs almadığını müəyyən edərək onun vəfat etdiyini söyləyib. Həkimin rəyindən sonra Essie üçün cənazə mərasimi düzənlənib. Lakin bacısı Essienin üzünü görmək istədiyini, onunla son dəfə vidalaşmaq istədiyini deyərək tabutun açılmasını xahiş edib. Bacısının xahişiylə tabut açılıb. Tabut açıldığında görənlər dəhşətə gəlib: Essie Dunbar tabutda uzanmış vəziyyətdə onlara baxıb gülürdü! Dəfnə toplaşanlar nə baş verdiyini anlamaqda çətinlik çəkib. Essie sağ imiş və onu diri-diri torpağa basdırırlarmış. Bacısı bir az gec gəlsəydi, qadın tabutun içində havasızlıqdan öləcəkdi. Qəsəbə sakinləri bu hadisədən qəzəblənib və salamat adamın niyə dəfn edildiyini yerli orqanlardan sorğulamağa başlayıblar. Bələdiyyə başqanı hadisənin araşdırılmasına tapşırıq verib. Məzarlıqda çalışanlar da dəyişdirilib. Amma Essienin qəbirdən sağ çıxması başqa söz-söhbətlərə, şayiələrə də səbəb olub. Bəziləri qadının əslində bir ruh olduğunu iddia edərək, onun öldüyünə, ruhunda dolaşdığına inanmağa başlayıblar. Essie Dunbara şübhəylə baxanlar, ondan qorxub çəkinənlər, onu zombi zənn edənlər də olub. Essie isə həyata təkrar döndükdən sonra fəaliyyətini daha da gücləndirib. Kilsə tərəfindən Essieyə mütəmadi olaraq qida, ərzaq, geyim göndərilib. Ştatın sayılıb-seçilən şəxsləri onunla görüşməyə can atıb. Essienin şöhrəti






getdikcə yayılıb. Bu hadisə Cənubi Karolinada dəfn məsələlərində qaydaların dəyişməsinə də gətirib çıxarıb. Yeni qaydalara görə, dəfn mərasimi insanın vəfatı barədə yalnız bütün sənədlər təqdim edildikdən sonra gerçəkləşə bilər. Bu hadisədən sonra Essie daha 40 il yaşayıb. 97 yaşında həqiqətən vəfat edən Essie ömrünün sonuna qədər Qaradərililərin İnkişafı üçün Beynəlxalq Birliyin fəal üzvü olub, irqçiliyə qarşı mübarizə aparıb.

**Məlahət Rzayeva**

## Kənan İmirzalıoğlu 77 milyonluq villa aldı



Aparıcı-aktyor Kənan İmirzalıoğlu ikinci övladı dünyaya gələndən sonra yeni villa arayışına çıxıb.

Axşam.az xəbər verir ki, aktyorun Beykozda məşhur səmtlərdən birində yerləşən evi seçdiyi iddia edilib.

Onun həyat yoldaşı, aktrisa Sinem Kobal və övladları ilə birgə yaşayacağı ev üçün 77 milyon lirə (6 milyon 729 min 421 manat) ödədiyi bildirilib.

*Qeyd edək ki, Kənanla Sinem 7 ildir evlidir və cütlüyün 2 qız övladı var.*

## Bakı konsertinə hazırlaşan Tatlısəsin evi yandı



Türkiyənin İzmir şəhərində 8 mərtəbəli binada yanğın başlayıb.

Axşam.az xəbər verir ki, hadisənin baş verdiyi binada müğənni İbrahim Tatlısəsin də evi yanıb.

Sənətçinin bəzi qonşularının çarəsizcə eyvandan özünü atdığı bildirilib.

## "Həyatımdan razıyam"

### Deniz Baysal övlad istəmir



Türkiyəli aktrisa Deniz Baysal son açıqlaması ilə diqqət çəkib.

Axşam.az xəbər verir ki, musiqiçi Barış Yurtçu ilə 3 ildir münasibətdə olan aktrisa ana olmaq istəmədiyini bildirib:

"İnsan dəyişkən varlıqdır. Hazırda övlad istəmirəm. Uşaq fikri mənə uzaqdır. Onun məsuliyyətini almaq istəmirəm. Uşağın olsa, sevəcəksən deyirlər. Təbii ki, sevəcəyəm, amma övladımın olmasını istəmirəm. Həyatımdan razıyam. Barış da həmçinin".

Anası xərçəngdən vəfat edən Deniz atasında da eyni xəstəliyin aşkarlandığını deyib.

*Qeyd edək ki, aktrisa hazırda "Teşkilat" serialında rol alır.*



# Bəzi heyvanları sevirik, bəzilərinin ətini yeyirik

## "Forbes" insanların heyvanlara fərqli münasibətinin başqa səbəblərini araşdırıb

**Bəzi heyvanları sevirik, bəzilərininsə ətini yeyirik, dərisini soyub geyinir, hətta bundan pul qazanırıq. Dini baxımdan yanaşsaq, heyvanlar haqqında məlum hökmlər var. Müxtəlif dinlərdə heyvanlara münasibət də fərqlidir. İslam dini cütdırnaqlılardan bəzilərinin yeyilməsini halal buyurduğu halda, məsələn, hindlilər öküzü müqəddəs bilir və onu kəsmirlər.**

"Forbes" dərgisi isə insanların heyvanlara fərqli münasibətinin başqa səbəblərini araşdırıb. Dərgidə yer alan xəbərdə bildirilir ki, insanlar fərqli heyvanlar barədə inanılmaz dərəcədə məntiqsiz və heç bir dəlilə söykənməyən düşüncələrə sahibdir. Hətta vegetarianlarla qeyrilərinin fikirləri belə bu məsələdə üst-üstə düşür. Heyvanlara münasibətdə qarışıq duyğuların səbəbini anlamaq üçün Singapur James Cook Universiteti və Avstraliya James Cook Universitetindən bir qrup araşdırmaçı insanların pələng, delfin, it, at, meymun, inək, donuz, toyuq, quzu, balıqlar, ahtapot (astioq), timsah, dovşan, köpəkbalığı, qurbağalar da daxil 16 heyvan növü haqqında rəyini öyrənmək üçün anket hazırlayıb və respondentlər arasında antrozooloji sorğu keçirib. Sorğu nəticəsində 4 qrup müəyyənləşib - sevənlər, qoruyanlar, laqeyd qalanlar və sevməyənlər. Sorğuda iştirak edənlər arasında vegetarianlar, fərqli dinlərə



mənsub olanlar olub, yaş həddi isə 26 seçilib. Məlum olub ki, sorğuda iştirak edənlərin böyük əksəriyyəti heyvanlar haqqında eyni fikirdədir. İnsanlar itlərə, atlara və meymunlara qarşı daha həssasdırlar. Onlarla yaxınlıq hiss edirlər. Timsah, ahtapot, ton balığı, qurbağa və karides - krivetkalara qarşı heç nə hiss etmirlər. Respondentlər pələngi, köpəkbalığını, delfinləri güclü və bacarıqlı heyvanlar hesab etdiklərindən onların xilas edilməsini vacib sayıb. Dovşan, inək və quzularısa zəif heyvanlar hesab edirlər. Donuzlar da sevimli heyvanlar sırasına daxil olmayıb. İnəklərə isə yalnız "qida heyvanı" kimi baxılır, toyuqlara qarşı isə sevgi duyurlar.

**Məlahət**

## Lobyanın qiyməti 8 manatdır

### Təklif az olduğundan qiymətlər bahadır



**Bazarda lobyanın qiymətinin həddən artıq baha olması diqqət çəkir. Sözügedən məhsulun bir kiloluq dəyəri 7-8 manat arasında dəyişir.**

Müşahidə olunan bu bahalaşma əhalinin narazılığına səbəb olur, bu məhsulun dəyərinin kəskin bahalaşmasına etiraz edir.

Məsələ ilə bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Rəşad Həsənov bildirib ki, mövzu ilə bağlı araşdırma etməsə də, bu qiymət artımının səbəblərinin təxmini nə olduğunu bilir: "Bu mövzu ilə bağlı araşdırmam olmayıb. Hər halda mövsümlə əlaqədardır. Ola bilər ki, məhsul bazarına təklif az olduğu üçün qiymətlər hazırda bahadır".

**Samirə Ərəblinskaya**

## Ətdən imtina...

### İnfarkt və insulta səbəb olur



**Ətdən tamamilə imtina B qrup vitaminlərinin ciddi defisitinə səbəb olur ki, bu da təhlükəli nəticələrə gətirib çıxarır.**

"Medicina" xəbər verir ki, həkim - diyetoloq Marqarita Karalyovanın sözlərinə görə, bu imtina orqanizm üçün son dərəcə vacib olan qida maddələri çatışmazlığı riskini artırır.

"Söhbət B vitaminlərindən (B6, B12 və B9, aka fol turşusu) gedir, bu vitaminlər zülalla birləşərək bədən üçün tikinti materialı verir.

Eləcə də onlar çoxlu sayda biokimyəvi reaksiyaların həyata keçirilməsində, o cümlədən hematopoetik sistemin işləməsində və beynin funksiyalarında iştirak edir.

B vitaminlərinin çatışmazlığı ilə qanda homosistein səviyyəsinin artması fonunda ürək-damar xəstəliklərinin yaranması riski artır".

Homosistein qan damarlarının daxili vəziyyətini göstərən bir analizdir.

Əgər homosistein yüksəkdirsə, qan laxtalanması, infarkt, insult, işemiya riski var deməkdir.

Hətta sağlam fiziki forma saxlayan vegetarianlar gənc yaşlarında ateroskleroz, insult və infarkt ola bilərlər.

Ona görə də insan üçün ətdən tam imtina yolverilməzdir.